# Azərbaycan müasir texnologiyaların tətbiqinə xüsusi önəm verir

Mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib.

CISCO şirkətinin vitse-prezidenti Qay Ditrix ölkəmizdə icra olunan birgə layihələrdən danışıb, bu layihələrin çox gözəl nəticələr verdiyini bildirib. CISCO şirkətinin vitse-prezidenti Azərbaycanın müvafiq strukturları ilə çox uğurlu əməkdaşlığın həyata keçirildiyini deyib və bu əməkdaşlığın təcrübə qazanmaq baxımından əhəmiyyətini vurğulayıb. O, təmsil etdiyi şirkətlə "Quantelo" şirkəti arasında həyata keçiriləcək əməkdaşlığın perspektivləri barədə də danışıb.

**Prezident İlham Əliyev deyib:**

-Qeyd etdiyiniz məsələlərə gəldikdə, biz onları əvvəllər müzakirə etmişik. Şadam ki, Davosda keçirdiyimiz görüşdən sonra böyük irəliləyişə nail olmuşuq. Heyətim mənə məlumat verib ki, bu sahələrdə, xüsusən də müzakirə etdiyimiz kimi "Ağıllı şəhər" layihəsi sahəsində işlər yaxşı gedir. İndi isə siz yeni "Smart ölkə" ideyası ilə çıxış edirsiniz. Nəinki şəhər infrastrukturu, nəqliyyat, dayanacaq yerləri və bəzi digər şəhər infrastrukturu, o cümlədən qlobal "Smart ölkə" konsepsiyası ortaya çıxır və biz onu tam dəstəkləyirik. Söylədiyiniz kimi, o, təhsili, kibertəhlükəsizliyi, səhiyyəni və əvvəlcə müzakirə etdiyimiz kimi, əlavə edərdim ki, kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunmasını əhatə edir. Mən buna sonradan qayıdacağam. Lakin ilk olaraq mənə sizin "Quantela" şirkəti ilə əməkdaşlığınız haqqında məlumat verildi. Əlbəttə ki, biz bunu tam dəstəkləyirik. "Smart ölkə" layihəsinin inkişaf gündəliyi üzrə tam tədqiqatın, bir növ "yol xəritəsi"nin hazırlanması da fikrimcə, çox faydalı olardı.

Hazırkı koronavirus şəraitində, əvvəlcə qeyd etdiyim kimi, bu məsələlər daha da vacibdir. Çünki demək olar ki, bütün ölkələrin ümumi daxili məhsulu zərbə altındadır. Bununla belə, bu ilin dörd ayında bizdə ümumi daxili məhsulun artımı 0.2 faiz səviyyəsində olub. Lakin anlayırıq ki, növbəti ay çox güman bu göstərici də aşağı düşəcək. Sənaye sektorunda vəziyyət daha yaxşıdır. Bizim qeyri-enerji sənayesində 13 faizdən artıq artım olub. Lakin, əlbəttə, koronavirus ümumi daxili məhsula və iş yerlərinə zərbə vurur, çünki biz, təbii ki, işsizliyin artmasını hesablayacağıq. Amma onun qarşısını almaq üçün 2 milyard avro həcmində çox ciddi iqtisadi və sosial paketi işə salmışıq. İqtisadiyyatın hazırda tam bağlandığı sahələrdə işlərini itirmiş insanları qorumaq üçün bunu edirik. Məsələn, turizm. O, indi sıfır səviyyəsindədir. Bir sözlə, bu məsələlər hazırda daha çox əhəmiyyət kəsb edir. Hesab edirəm ki, biz diqqətimizi onun üzərinə yönəldəcəyik.

İndicə danışdığımız məsələlərdən başqa, fikrimcə, biz digər sahələrdə də işləyə bilərik.

Videokonfransda CISCO şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, Azərbaycan Prezidentinin köməkçisi Şahmar Mövsümov, CISCO şirkətinin Rusiya və MDB ölkələri üzrə vitse-prezidenti Conatan Spərrou, CISCO-nun Azərbaycan üzrə regional direktoru Vladimir Orlov və CISCO-nun Ukrayna üzrə regional direktoru Oleq Bodnar çıxış ediblər.

# Moldova ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq möhkəmlənir



Mayın 18-də Moldova tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Moldova Respublikasının Prezidenti İqor Dodon arasında videokonfrans formatında görüş keçirilib.

Görüş zamanı dövlət başçıları koronavirus pandemiyasi ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıblar, pandemiyanın sosial-iqtisadi fəsadlarının aradan qaldırılması istiqamətində gələcəkdə görüləcək işlərdən danışıblar.

Prezident İlham Əliyev və Prezident İqor Dodon ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə edərək siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd ediblər.

Söhbət zamanı dövlət başçıları pandemiya başa çatdıqdan sonrakı dövrdə ölkələrimiz arasındakı əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi məsələlərinə toxunaraq bildiriblər ki, ticarət, iqtisadiyyat, nəqliyyat, energetika və digər sahələrdə əlaqələrimizin genişləndirilməsi, eləcə də investisiya layihələrinin həyata keçirilməsi üçün əlverişli imkanlar var. Prezidentlər bu baxımdan postpandemiya dövründə hökumətlərarası komissiyanın iclasının keçirilməsinin iqtisadi əməkdaşlığımızın möhkəmlənməsi işinə töhfə verəcəyini vurğulayıblar.

Dövlət başçıları, eyni zamanda, ölkələrimizin biznes dairələri arasında əlaqələrin genişləndirilməsi və gələcəkdə biznes forumun keçirilməsi perspektivlərini də müzakirə ediblər. Moldova Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərlə bağlı dəvətini bir daha diqqətə çatdırıb. Prezident İlham Əliyev də öz növbəsində, münasib vaxtda Moldova Prezidenti İqor Dodonu Azərbaycana rəsmi səfərə dəvət edib.

# İqtisadiyyat naziri Dünya İqtisadi Forumunun Regional Fəaliyyət Qrupunun iclasında iştirak edib

Mayın 18-də Dünya İqtisadi Forumunun Regional Fəaliyyət Qrupunun 2-ci iclası keçirilib. Videokonfrans formatında keçirilən iclasda Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov, Forumun prezidenti Borge Brende, həmçinin 30-dan çox ölkədən yüksək səviyyəli şəxslər iştirak ediblər. Regional Fəaliyyət Qrupunun məqsədi Dördüncü sənaye inqilabı, eləcə də dəyişən siyasi və iqtisadi mühitdə Avrasiya regionunun inkişafının istiqamətləndirilməsinə dəstək verilməsidir.

İclasda karantin rejimindən çıxış strategiyaları üzrə koordinasiyanın vacibliyi, postpandemiya dövrünə hazırlıq, təchizat zəncirinin dayanıqlığının artırılması, "yaşıl iqtisadiyyat"ın dəstəklənməsi və s. məsələlər ətrafında müzakirələr aparılıb, təkliflər səsləndirilib.

Qeyd edək ki, Dünya İqtisadi Forumunun Regional Fəaliyyət Qrupunun 1-ci iclası aprelin 30-da keçirilib.

# Mərkəzi Bank AYİB ilə 200 milyon dollarlıq svop müqaviləsi bağlayıb




Azərbaycan Mərkəzi Bankı (AMB) pandemiya şəraitində biznes və əhaliyə dəstəyin göstərilməsi istiqamətində kompleks tədbirlərini davam etdirir. Bu istiqamətdə mühüm yeniliklərdən biri də Mərkəzi Bankın beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığı çərçivəsində iqtisadiyyatın maliyyə xidmətlərinə çıxışını daha da artırmaq üçün yeni maliyyə alətlərinin tətbiqidir. Bu məqsədlə koronavirus pandemiyası dövründə real sektorun maliyyə resurslarına çıxış imkanının artırılması məqsədilə Mərkəzi Bank və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) arasında ümumi məbləği 200 milyon ABŞ dolları olan svop müqaviləsi bağlanıb.

AMB-dən bildirilib ki, bununla da AYİB yerli valyutaya etibarlı çıxış imkanı əldə etməklə yerli şirkətlərə milli valyutada kredit dəstəyi göstərməyə yeni imkanlar əldə edəcək. Bu məbləğin 50 milyon dolları, yəni 85 milyon manat ekvivalentinin cari ildə müvəqqəti çətinliklərlə üzləşən yerli şirkətlərə, xüsusilə də nisbətən kiçik şirkətlərə verilməsi nəzərdə tutulur.

Mərkəzi Bank və AYİB arasında əldə edilmiş bu razılaşma pandemiyadan təsirlənmiş biznes subyektlərinin dəstəklənməsi ilə yanaşı, ölkəmizdə törəmə maliyyə alətlərindən istifadənin genişləndirilməsini və alternativ maliyyələşmə aləti kimi istifadəsini də təşviq edəcək. Bu, Mərkəzi Bank tərəfindən beynəlxalq müstəvidə həyata keçirilən strategiyanın, beynəlxalq maliyyə təşkilatları ilə olan sıx əməkdaşlığın və törəmə maliyyə alətləri üzrə beynəlxalq çərçivə razılaşmasının ölkəmizin pul və kapital bazarında tətbiqi nəticəsində əldə olunmuş nailiyyətdir.

# Dövlət maliyyə dəstəyi üçün 135,7 min vergiödəyicisi müraciət edib




Koronavirus (COVID-19) pandemiyasından zərərçəkmiş sahibkarlara dövlət maliyyə dəstəyinin göstərilməsi davam edir.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planına əsasən, mayın 18-nə nazirliyə muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün koronavirus pandemiyasından zərərçəkmiş 27 min 557 vergiödəyicisi və maliyyə dəstəyi almaq üçün 108 min 216 fərdi (mikro) sahibkar, cəmi 135 min 773 vergiödəyicisi müraciət edib.

Muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi çərçivəsində 255 min 313 işçini əhatə edən 27 min 557 vergiödəyicisi müraciət edib.

İndiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 93,95 milyon manat, o cümlədən 2-ci mərhələ üzrə ödənilməsi nəzərdə tutulan vəsaitin həcmi 46,97 milyon manat təşkil edir. Mayın 18-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 22 min 682 vergiödəyicisinə 199 min 449 nəfər muzdlu işçinin əməkhaqqı üzrə 69,12 milyon manat vəsaitin köçürülməsi təmin olunub.

Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 100 min 690 vergiödəyicisinin müraciəti araşdırılaraq təsdiqlənib və maliyyə dəstəyinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib.

Təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 58,5 milyon manat təşkil edir.

# Dörd ayda Azərbaycan Gürcüstanın əsas ixrac tərəfdaşı olub



Yanvar-aprel ayları ərzində Gürcüstan Azərbaycandan 221,8 milyon ABŞ dolları dəyərində məhsul idxal edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5,9 faiz azdır.

Bu barədə Gürcüstan Milli Statistika İdarəsinin hesabatında deyilir.

Bildirilir ki, cari ilin ilk 4 ayında Azərbaycan Gürcüstanın ümumi idxalında 9 faiz paya malik olub. Bununla da Azərbaycan Türkiyə və Rusiyadan sonra Gürcüstanın üçüncü əsas idxal tərəfdaşı olub.

Yanvar-aprel aylarında Gürcüstandan Azərbaycana 145,1 milyon dollarlıq məhsul ixrac olunub. Bu da illik müqayisədə 13,9 faiz çoxdur.

Hesabat dövründə Azərbaycan Gürcüstanın ümumi ixracında 14,5 faiz payla qonşu ölkənin birinci əsas ixrac tərəfdaşı olub.

rak etməklə bir- birinə yardım etsinlər ki, bu dövrü birlikdə keçə bilsinlər. Hesab edirəm ki, İslam Əməkdaşlıq Təşkilatının vəzifəsi əvvəlkindən on qat artacaq.

**Sakarya Universiteti Siyasi bilgilər fakültəsi, İqtisad bölümünün professor doktoru Səlim İnanclı:**

- İslam Konfransı Təşkilatı (İKT) 1969-cu ildə yaradılıb. Bu günə qədər 57 üzv ölkə və 5 gözləyən ölkə var. Əslində, İKT-nin təməl məqsədi islam ölkələrinin bir-birini dəstəkləməsi, eyni zamanda, ekonomik iş birliyinin genişləndirilməsidir. Bu məsələdə İslam İnkişaf Bankının çox böyük rolu olduğunu söyləyə bilirik. Bu ölkələrdə koronavirusa yoluxma, onun bütün dünyaya yayılması ölkələr üçün bir sınaq oldu. Eyni zamanda, İslam konfransına bir çox qitədən, məsələn, Asiya, Afrika, Ərəb ölkələrinin üzv olması və üzv ölkələr arasında kəskin fərqlərin olması vəziyyəti mürəkkəb edir. **Aprelin 22-də ÜST İcraiyyə Komitəsinin toplantısı keçirildi. Hətta bu dönəmdə İslam İnkişaf bankı 2 milyard dollar dəstək proqramı açıqladı.** Əslində, bu addım İslam konfransı təşkilatına üzv olan az inkişaf etmiş ölkələrə maddi yardım, təməl dəstək, kredit və borcların yenə də ertələnməməsi səbəbi ilə atıldı. Yəni, bu gün bu virus bütün dünyada olduğu kimi, islam ölkələri arasında da sürətlə yayılır. Covid-19 son zamanlarda Asiya və Afrika ölkələrində çox sürətlə yayılmağa başladı. Bunun nəticəsinin nə olacağı bəlli deyil, təxminən iki ay davam edəcəyi ehtimalı var. Ölkələrin iqtisadiyyatının qısa və ya uzunmüddətli dövrdə atacağı addımlar, yeni proqramların qəbul olunması bundan asılıdır. Bu gün biz İslam Konfransı Təşkilatına üzv ölkələrin bir çoxunun neftlə bağlı ölkələr olduğunu görürük. Neftin qiymətinin aşağı düşməsi ilə birlikdə, dünyada koronavirus nəticəsində yaşanan resessiyaya bağlı olaraq, bir çox ölkələrdə ekonomik sarsıntılar başladı. Çünki üzv olan ölkələrin çoxunda işsizlik, inflyasiya, xarici borc kimi problemlər var. Eyni zamanda, özəlliklə dünya iqtisadiyyatında son zamanlar tənəzzül başlandı. Qloballaşma ölkələrin bir-birindən asılı olması, yoxsa koronavirusa qarşı bəzi tədbirlərin birlikdə görülməsinin zəruriliyini ortaya çıxardı. **Adam Smitin, "müdafiə zənginlikdən önəmlidir" deməsinə rəğmən, özəlliklə səhiyyənin strateji sahə olduğunu görürük. Yəni, müdafiə sahəsi ilə birlikdə səhiyyə sistemini də ciddiyə alıb, koordinasiya edilməsinin vacibliyi virusdan sonra anlaşıldı. Bu gün bir çox ölkələrin səhiyyəsində ciddi problemlər var.** Yəni, səhiyyə xidmətləri yetərli olmadı, insanlar bu virusdan qorunmaq üçün daha çox gigiyenik tədbirlərə, sağlıq durumlarına diqqət yetirməyə başladılar. Eyni şəkildə, idarəetmədə də dəyişiklik yaranmağa başladı, çünki özəlliklə nəqliyyat-rabitə sektorunun son nöqtəyə gəlməsi, ölkələrarası izolyasiya, hava yollarının bağlanması həyata keçirildi. Hər bir ölkə ayrılıqda özünü qoruyur, bu virusla mücadilə edir. Bu gün hər ölkəyə ayrılıqda baxdıqda görürük ki, bir çox şirkətlər, fabriklər öz xammalının xaricə bağlı olma problemi ilə əlaqədar, başda Çin olmaqla digərlərindən asılı vəziyyətə düşmüşlər. Ölkələrin bu qədər asılı olması onlarda həm iqtisadi, həm də idarəetmə baxımından ciddi problem yaşanacağını göstərir. Bu da ciddi anlamda ölkələrdə istehsalın azalmasına, həm daxili, həm də ölkələrarası tələb və təklifin aşağı düşməsinə təsir edəcək. Bir sözlə, ölkə iqtisadiyyatında daralma müşahidə ediləcək, eyni hal islam ölkələrinə də aiddir.

**Akademik Ziyad Səmədzadə:**

- Mən, ilk növbədə, Zahid müəllim, sizə təşəkkürümü bildirirəm. Dünyanı narahat edən, dövlətlərimiz üçün problemlər yaradan bir məsələni müzakirə edirsiniz. Mövzu çox aktualdır. Əslində, islam dünyası uzun əsrlər bir çox ağır xəstəliklərlə üzləşib. Amma bugünkü qloballaşan dünyada gedən prosesləri qiymətləndirərkən qeyd etməliyik ki, islam dünyası ölkələrinin bir çoxunda vəziyyət daha mürəkkəb, ağır iqtisadi itkilərlə nəticələnə bilər. Çünki bu ölkələrin təbii resurslarla çox zəngin olmasına baxmayaraq, onlarda ÜDM-in, iqtisadi fəallığın bir çox sahələrdə aşağı olması yoxsulluğun, işsizliyin artması ilə nəticələnmişdir. Bu boşluğu doldurmaq üçün xeyli vaxt tələb olunacaqdır.

Azərbaycan iqtisadçılarının və bizim qardaş ölkələrdən olan dostlarımızın islam iqtisadiyyatı sahəsinə maraq göstərməsi heç də təsadüfi deyil. Biz də islam dünyasının bir parçasıyıq. Müstəqillik əldə etdikdən sonra bu sahədə Azərbaycanda ilk tədqiqat aparan alimlərimizdən biri, dəyərli dostum mərhum professor Məmməd Meybullayev olub. Mən taleyimdən çox razıyam ki, Meybullayevlə bir şöbədə çalışmışam və onun "İslam iqtisadiyyatı" kitabının meydana çıxmasına dəstəyim olub. Bu gün islam dünyası ölkələrini hansı məsələlər maraqlandırır, biz hansı məsələlərə fikir verməliyik ki, ən ağır şəraitlərdə belə islam iqtisadiyyatı davamlılığını qoruya bilsin, dayanıqlı olsun, özünün potensialından daha səmərəli istifadə etsin. **Ən böyük məsələ, mən deyərdim ki, islam dünyası ölkələri arasında konsensusa nail olmaqdır. Borc problemi, yoxsulluq, işsizlik məsələsi islam dünyasında çox yüksək səviyyədədir və təəssüf ki, islam ölkələrinin böyük təbii sərvətlərə malik olmasına baxmayaraq, onların dünya iqtisadiyyatında xüsusi çəkisi xeyli aşağıdır.** Nə üçün belə vəziyyət yaranmışdır? Təbii sərvətlərin bolluğu şəraitində sadaladığım əsas göstəricilər çox aşağı səviyyədədirlər. Dünya ölkələri arasında yoxsulluq səviyyəsinə görə islam ölkələri, heç də bu göstəricinin aşağı olmasına görə fərqlənmirlər, əksinə bu ölkələrdə yoxsulluq xeyli çoxdur. Nə üçün? Ona görə ki, uzun illər qloballaşmanı sürətləndirən və bunda maraqlı olan dövlətlər, iri beynəlxalq təşkilatlar heç də həmişə bu ölkələrə birmənalı şəkildə dəstək olmayıblar. Vaşinqton konsensusu, ona sözsüz inam bu ölkələrin də iqtisadiyyatına ciddi təsir etmişdir. Bəlkə də bu gün koronavirus bu ölkələrdə nisbətən aşağı göstəricilərlə xarakterizə olunur, amma islam ölkələri vaxtı ilə daha böyük bəlalarla üzləşiblər. Əvvəlki əsrlərdə islam ölkələri arasında nisbətən birlik vardısa, bu gün qloballaşan dünyada ölkələr arasında birliyin o qədər də olmaması onların iqtisadiyyatına mənfi təsir edir. Ona görə də islam ölkələrinin təşkilatı ilk növbədə islam dünyasının inkişaf strategiyası barədə düşünməlidir. Mən təklif edərdim ki, islam ölkələrinin iqtisadçı alimlərindən ibarət qrup yaradılsın və biz məmnuniyyətlə bu qrupda təmsil olunmaq istərdik. İslam ölkələrinin inkişaf strategiyası barədə düşüncələrimizi müzakirə edib, bir ortaq məxrəcə gələ bilərik. **Nə üçün vaxtilə adambaşına düşən ÜDM istehsalına görə qabaqcıl yerlərdə olan dünyanın ən zəngin ölkələri bu gün aclıq vəziyyətindədir? Liviya inkişaf səviyyəsinə görə irəlidə olan ölkələrdən biri olduğu halda, indi nə üçün faciə ilə üzləşdi? Yaxud, Nigeriya, Somali və digər Afrika ölkələrində aclıq, xaricdən asılılıq və s....** Akademik Azad Mirzəcanzadənin bir fikrini həmişə təkrar edirəm - "qlobal təfəkkür, lokal qərar". Biz bu gün islam dünyası ölkələrinin davamlılığını artırmaq istəyiriksə, onların inkişafını sürətləndirən əsas istiqamətlər barədə elmi əsaslandırılmış mövzumuz olmalıdır.



Azərbaycan islam dünyası ölkələrinin toplantısının keçirilməsinə ev sahibliyi etdi və 57 ölkənin nümayəndəsi Azərbaycana gəldi. Bu, çox əlamətdar bir tədbir oldu. Mən hesab edirəm ki, bu ölkələrin inkişafını təmin edən strategiya olmalıdır. Bu strategiyanın hazırlanmasına iqtisadçı alimlər və mütəxəssislər cəlb edilməlidir ki, bu da çox faydalı iş olardı. Eyni zamanda, mən hesab edirəm ki, Zahid müəllimin təşkilatçılığı ilə belə qrup yaradıldıqdan sonra birgə layihələr həyata keçirmək olardı. Bir sözlə, islam dünyası iqtisadçılarını bir araya gətirməli, müzakirələr aparmalı, ümumi bir sənəd ortaya qoymalıyıq. 1997-ci ildə mənim türk dünyasının iqtisadi strategiyası barədə düşüncələrlə bağlı yazım böyük beynəlxalq konfransda müzakirə edildi və bir sıra alimlər tərəfindən qəbul olundu. Bu gün fikirləşək, necə olur ki, kifayət qədər əmək ehtiyatları, təbii resursları olan ölkədə işsizlik, ölüm halları yüksək, səhiyyəyə ayrılan xərclər dəfələrlə aşağıdır? Nə üçün İslam ölkələrində milyon dollarlıq xammal hesabına güclü emal sənayesi yaratmırlar? İslam dünyası ölkələrinin iqtisadiyyatını 10 ilə, 15 ilə, 20 ilə düzəltmək üçün hansı yol seçilməlidir? Bu ölkələr kasıbdırlar, geridə qalırlar, həddən artıq borcları var. Bəs, nə edək? İlk növbədə konsensus, əsas iqtisadi baxışlarımızda bir araya gəlməliyik. Beynəlxalq təşkilatların islam ölkələrinə etdiyi köməyin səmərəsi varmı? Bu ölkələrdən nə aparıblar və nə veriblər? Bu suallara cavab verilməlidir.

**Qloballaşan dünyada bu ölkələrin müstəqil siyasət yeritmələri üçün onlar beynəlxalq təşkilatların təkliflərini olduğu kimi qəbul etməməlidirlər. Dövlətin iqtisadi təhlükəsizliyi qorumaq, iqtisadiyyatda geriliyi aradan qaldırmaq məqsədilə fəal iştirakı təmin edilməlidir. Hər nə varsa özəlləşdirmək, transmilli şirkətlərə vermək millət üçün, milli suverenliyi qorumaq baxımından təhlükəli addım hesab edilməlidir.**

Zahid müəllim, siz həmişə təşəbbüslərlə çıxış edirsiniz. Gəlin, bu gün də belə bir qərara gələk ki, işçi qrupu yaradılsın, qısa vaxt ərzində bu işçi qrupunun üzvləri ilə əlaqələr təmin olunsun, onların hər biri öz təklifini versin, nəticədə yekun strateji proqramın strukturu hazırlansın və bu plan-proqram əsasında əməkdaşlığımızı quraq. Bu gün biz "koronavirus pandemiyası problem yaradıb, ona görə ölkənin iqtisadi inkişaf modeli dəyişməlidir" fikirlərini eşidirik. Ölkənin modeli dəyişməyib, heç bir ölkənin iqtisadi inkişaf modeli 1 ilə, 2 ilə dəyişmir. Çox təəssüf ki, bu kimi fikirlərlə çıxış edənlər iqtisadi modelin mahiyyətini dərk etmirlər. **Hər birimizə yaxşı məlumdur ki, heç də hər bir qlobal risk ölkənin inkişaf modelini dəyişdirmir. II Dünya müharibəsində məğlub olmuş Almaniya özünün inkişaf modelini müəyyən etdi və onun uğurla reallaşması Almaniyanı xilas etdi. Bu məsələdən 60 ildən çox vaxt keçib, yeni inkişaf amilləri, riskləri meydana çıxıb. Ancaq almanlar öz inkişaf modelini dəyişdirmir, yaranmış şəraitə uyğun korrektə edirlər. Bu cür yanaşma tamamilə düzgündür.**

Bu çətin zamanlarda Prezident İlham Əliyev Türk dünyası ölkələrinin Zirvə toplantısını keçirdi. Türk dünyası ölkələrinin birləşməsi bu gün bir nümunədir. İnşallah elə bir gün olsun ki, islam dünyası ölkələrinin rəhbərləri heç nədən asılı olmadan, müəyyən narazılıqları, qarşıdurmanı kənara qoysunlar, bir şüar altında birləşək. **Biz dünyanın ən mütərəqqi dinini qəbul etmiş Məhəmməd peyğəmbəri, islam dünyasının dəyərlərini qoruyub saxlamaqla islam ölkələrinin iqtisadiyyatını yüksəklərə qaldıraq və deyək ki, bu ölkələrdə 10 ilə, 15 ilə, 20 ilə yoxsulluq azalacaq və s. Belə bir təşəbbüslə çıxış etsək, konkret olaraq hər bir islam ölkəsinin parametrlərini sistemli şəkildə təhlil etsək, gələcək nəsillər görəcək ki, biz şikayət etmirik, "o yoxdur, bu yoxdur" demirik. Biz deyirik ki, islam dünyası ölkələri dünya iqtisadiyyatında daha böyük çəkiyə malik olmalıdır və biz buna nail olacağıq. İqtisadi güc isə böyük qüvvədir. Allah bəşəriyyəti, onun islam dünyasını qorusun!**

# Pərakəndə ticarət dövriyyəsi 33,1% azalıb



2020-ci ilin aprel ayında mart ayı ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi 33,1 faiz azalıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayımlayıb.

Məlumata görə, 2020-ci ilin yanvar-aprel aylarında pərakəndə ticarət şəbəkəsində əhaliyə 11516,1 milyon manatlıq qeyri-ərzaq malları satılıb. 6169,7 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 5346,4 milyon manatlıq qeyri-ərzaq malları satılıb. Məlumatda bildilir ki, koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə ticarət sektorunda da xüsusi iş rejiminin tətbiqi bu sahədə, xüsusilə qeyri-ərzaq mallarının satışı sahəsində işgüzar fəallığı zəiflətmiş və o cümlədən qeyri-ərzaq malları üzrə 38,6 faiz azalma qeydə alınmışdır.

# Naxçıvanda əsas kapitala yönələn vəsaitin həcmi 0,8% artıb

Bu ilin yanvar-aprel aylarında vəsait qoyuluşları çərçivəsində Naxçıvan Muxtar Respublikasında bütün maliyyə mənbələrindən əsas kapitala 290,3 mln. manatdan çox vəsait yönəldilib ki, bu da bir il önçəki göstəricidən 0,8% çoxdur.



Naxçıvan Dövlət Statistika Komitəsinin məlumatına görə, əsas kapitala yönəldilən vəsaitin 274,8 mln. manatdan çoxu və ya 94,7%-i tikinti-quraşdırma işlərinin payına düşüb.

# 15 bankın qeyri-faiz gəlirləri artıb

Azərbaycanda fəaliyyət göstərən 15 bankın 2020-ci ilin 1-ci rübü üzrə qeyri-faiz gəlirləri artıb.

Ötən il ilə müqayisədə bu il qeyri-faiz gəlirləri artan banklar "Xalq Bank"(2,8 dəfə), "Paşa Bank" (2,6 dəfə), "Ziraat Bank Azərbaycan" (2,2 dəfə), Bank of Baku (85,4%), "Naxçıvanbank" (80,6%), "Günaybank" (71,4%), Rabitəbank (56,9%) olub.

Məbləğə görə ən çox artım "Paşa Bank", "Kapital Bank", "Xalq Bank", Beynəlxalq Bank, "Bank Respublika", "Bank of Baku", "Rabitəbank", "Günaybank"da olub.

Qeyri-faiz gəlirləri ötən ilə görə, "Paşa Bank"da 15 milyon 146 min manat , "Kapital Bank"da 12 milyon 393 min manat, "Xalq Bank"da 5 milyon 106 min manat, "Beynəlxalq Bank"da 3 milyon 863 min manat, "Bank Respublika"da 1 milyon 457 min manat, "Bank of Baku"da 1 milyon 201 min manat, "Rabitəbank"da 1 milyon 184 min manat, "Günaybank"da 1 milyon 101 min manat artıb.

Qeyri-faiz gəlirlərinin ən çox azaldığı banklar "Bank VTB" (155% azalma), "Accessbank" (9,6 dəfə azalma), "Muğanbank" (5,1 dəfə azalma), "Azərbaycan Sənaye Bankı" (2,9 dəfə azalma) olub.

Qeyd edək ki, qeyri-faiz gəlirləri "Accessbank"da 20 milyon 48 min manat, "Muğanbank"-da 18 milyon 500 min manat, "Azərbaycan Sənaye Bankı"n - da 2 milyon 596 min manat, "Bank VTB"-də 2 milyon 83 min manat azalıb.



# <<ExxonMobil>> AÇG-dəki hissələrini sata bilər

ABŞ-ın "ExxonMobil" neft şirkəti Azəri-Çıraq-Günəşli (AÇG) yatağındakı öz hissələrini sata bilər.

Bu barədə "Reuters" agentliyinə şirkətin nümayəndəsi Culi Kinq deyib.

C.Kinq bildirib: "ExxonMobil" Azərbaycanda fəaliyyət göstərməyən istehsal aktivlərinə bazar marağını yoxlayır. Başqa şirkətlər aktivlərdə daha çox dəyər görsələr, biz onları satacağıq".

Agentliyin bank sektorundakı mənbələri bildiriblər ki, mümkün sözləşmə Asiyanın böyük neft və qaz şirkətlərində maraq doğurub.

Qeyd edək ki, AÇG blokunun işlənməsi üçün müqavilə 1994-cü ildə imzalanıb. 14 sentyabr 2017-ci ildə Bakıda AÇG blokunun 2050-ci ilə qədər işlənməsi ilə bağlı yeni müqavilə imzalanıb.



# AZƏRBAYCAN AUDİTİ – 2019

*"... Çox xoşdur ki, Azərbaycanın indiyə kimi qazandığı iqtisadi uğurlar və hazırda həyata keçirdiyimiz islahatlar dünyanın nüfuzlu maliyyə qurumları tərəfindən lazımınca qiymətləndirilir. Bu isə öz növbəsində, bizim hər birimizdən daha şəffaf və səmərəli işləməyi tələb edir. Şəffaflıq, eyni zamanda, korrupsiyaya qarşı mübarizədə nəzarət orqanlarının işini asanlaşdırır. Dövlət orqanlarının həyata keçirdiyi nəzarətlə yanaşı, ictimai nəzarətin, o cümlədən müstəqil auditin rolu getdikcə artır. Müstəqil audit maliyyə və vergi intizamının gücləndirilməsində, vəsaitlərin təyinatına uyğun və qənaətlə xərclənməsində aşkarlığı təmin edən əsas vasitələrdən biridir. Eyni zamanda, yeni dövrün çağırışlarını nəzərə alaraq, iqtisadi islahatların indiki mərhələsində audit sistemini yenidən qurmaq, onun təsirliliyini artırmaq və beynəlxalq aləmə inteqrasiyasını gücləndirmək sahəsində çox iş görülməlidir. Əminəm ki, Auditorlar Palatası bundan sonra da özünün səmərəli fəaliyyəti ilə ölkəmizdə müstəqil auditin inkişaf və tərəqqisinə, şəffaflığın təmin edilməsinə və daha da artırılmasına öz töhfəsini verəcəkdir".*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



*Qəşəm BAYRAMOV, Azərbaycan Respublikası Auditorlar Palatası Aparatının rəhbəri*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla həyata keçirilən məqsədyönlü və köklü iqtisadi islahatlar və düşünülmüş siyasət nəticəsində Azərbaycan əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də iqtisadi sahədə qarşıda duran bütün vəzifələri uğurla yerinə yetirmişdir.

Həmin iqtisadi islahatlar, Azərbaycan Respublikasının regionda iqtisadi cəhətdən lider dövlətə çevrilməsi, dövlətin iqtisadi qüdrətinin daha da möhkəmləndirilməsi, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, ölkədə sosial problemlərin həlli, əhalinin maddi rifah halının yüksəldilməsi, yoxsulluğun və işsizliyin sürətlə azaldılması bütün sahələri əhatə edən çox mühüm dövlət proqramlarını həyata keçirmək üçün möhkəm təməl və əsaslı zəmin yaratmışdır.

2019-cu il dərin iqtisadi islahatlar ili olmaqla yanaşı, həm də ölkəmizin sosial-iqtisadi həyatında da əlamətdar il olmuşdur. Belə ki, aparıcı beynəlxalq qurumlar və nüfuzlu reytinq mərkəzləri Azərbaycan dövlətinin həyata keçirdiyi bu islahatları çox yüksək qiymətləndirmişlər. Dünya Bankının «Doing Business-2019» hesabatında biznes mühitinin əlverişliyinə görə ölkəmiz əvvəlki illərlə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerə yüksəlmiş və Azərbaycan 20 ən islahatçı ölkə siyahısına daxil edilmişdir.

Azərbaycanda 2019-cu ildə makroiqtisadi sabitlik təmin olunmuş və ümumi daxili məhsul 2,2%, qeyri-neft sektoru 3,5%, sənaye istehsalı 1,5%, kənd təsərrüfatı istehsalı 7,0%, valyuta ehtiyatlarımız 6,4 milyard dollar artmış və rekod həddə – 51,0 milyard dollara çatmış, inflyasiya cəmi 2,6%, əhalinin pul gəlirləri isə 7,4% olmuşdur.

Auditorlar Palatasının 2019-cu ildəki fəaliyyətində də auditin inkişafı və onun normativ hüquqi bazasının təkmilləşdirilməsi üzrə mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuş və Palatanın struktur bölmələri və Palatanın Şurası yanında komitələr tərəfindən uğurla həyata keçirilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2019-cu il üzrə iş planına uyğun olaraq bir sıra işlər yerinə yetirilmişdir, o cümlədən:

• *İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan auditor təşkilatlarına və sərbəst auditorlara qarşı xüsusi tələblərin hazırlanması;*
• *Publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditi üzrə metodik göstərişin hazırlanması;*
• *Auditi aparılan təsərrüfat subyektinin yeni və əvvəlki auditorlarının qarşılıqlı münasibət və hərəkətlərinə dair metodik vəsaitin hazırlanması;*
• *Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin göstərilməsinə dair proqramın hazırlanması;*
• *Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydaların hazırlanması;*
• *«Audit komitələri haqqında» Əsasnamənin yenidən işlənməsi;*
• *Auditorun şəxsi kabineti sisteminin yaradılması;*
• *Məcburi auditdən keçməyən məcburi audit subyektlərinin müəyyən edilməsi və təsnifləşdirilməsi;*
• *Kölgə iqtisadiyyatının aradan qaldırılması istiqamətində kompleks tədbirlər sisteminin Yol Xəritəsi çərçivəsində işlənib hazırlanması;*
• *Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyanın hazırlanması;*
• *Beynəlxalq Audit Standartlarının 2017-ci il versiyasının II cildinin tərcüməsi və nəşri;*
• *Kiçik və orta müəssisələrin auditində Beynəlxalq Audit Standartlarının tətbiqinə dair təlimatın tərcüməsi.*

**Auditor təşkilatları və sərbəst auditorların auditor xidmətləri üzrə fəaliyyətləri**

2019-cu il ərzində 57 sərbəst auditorun və 123 auditor təşkilatının (o cümlədən, 2 xarici auditor təşkilatının filial və nümayəndəliyi və 15 xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatı) auditor fəaliyyətini həyata keçirmək hüququ olmuşdur.

İl ərzində auditor fəaliyyətini həyata keçirmək hüququ verən 29 auditor təşkilatına və 3 sərbəst auditora icazə verilmişdir.

Təqdim edilmiş hesabatlara əsasən müəyyən edilmişdir ki, hesabat dövründə təsərrüfat subyektləri ilə 73,1 mln. manat məbləğində 6451 müqavilə bağlanmışdır. Bağlanmış müqavilələrdə böyük dördlük üzrə xüsusi çəkisi sayına görə 11,92% və məbləğinə görə 64,03%, xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üzrə sayına görə 8,37% və məbləğinə görə 18,48%, yerli auditor təşkilatları üzrə sayına görə 58,13% və məbləğinə görə 14,00%, sərbəst auditorlar üzrə sayına görə 21,58% və məbləğinə görə 3,49% təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə bağlanmış müqavilələrin sayı 4517-dən 6451-ə qədər, yəni 1934 ədəd və ya 42,82% artmış, məbləği isə 74,6 mln. manatdan 73,1 mln. manata qədər, yəni 1,5 mln. manat və ya 2,0 % azalmışdır.

2019-cu il ərzində bağlanmış müqavilələrdən 59,5 mln. manat məbləğində 5205-i yerinə yetirilmişdir.

Qeyd etmək lazımdır ki, 2018-ci il ilə müqayisədə yerinə yetirilmiş müqavilələrin sayı 3943-dən 5205-ə qədər, yəni 1262 ədəd və ya 32,0%, məbləği 59,4 mln. manatdan 59,5 mln. manata qədər, yəni 0,1 mln. manat və ya 0,2% artmış, orta məbləği isə 15,1 min manatdan 11,4 min manata qədər, yəni 3,7 min manat və ya 24,5% azalmışdır.

2019-cu il ərzində yerinə yetirilmiş 5205 müqavilədən 3745-i məcburi auditin subyekti, 1460-ı isə könüllü auditin subyekti olmuşdur. Bu da uyğun olaraq 71,95% və 28,05% təşkil etmişdir.

2019-cu il üzrə 46282,00 məcburi audit obyektindən cəmi 3745-i (8,09%) auditdən keçmişdir.

Azərbaycanda beynəlxalq tələblərə uyğun fəaliyyət göstərməyə qadir olan auditor kadrlarının hazırlanması, onların peşə-ixtisas səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi məsələləri Palatanın fəaliyyətində mühüm istiqamətlərdən birini təşkil edir.

Auditorlar Palatasının İmtahan Komissiyası və Kadr hazırlığı şöbəsi tərəfindən auditor fəaliyyəti ilə məşğul olmaq hüquqi verən icazələrin qüvvədə olma müddətinin başa çatması ilə əlaqədar bir qrup auditorlara və auditor adı almaq üçün yeni müraciət etmiş şəxslərə 2019-cu ilin 20-27 aprel, 22-29 iyun, 14-21 dekbar tarixlərində I və II pillələr üzrə imtahanlar təşkil edilmişdir.İmtahanların nəticələrinə görə və icazələrinin müddəti başa çatmış 7 nəfər imtahanlarda iştirak etməmiş, 1 nəfər qeyri-müvəffəq və 29 nəfər müvəffəq bal toplamışdır.

Palatanın 2019-cu il üzrə iş planına uyğun olaraq təsdiq edilmiş siyahı üzrə 2 sentyabr tarixindən 26 sentyabr tarixinədək I, II, III qruplar üzrə 97 nəfər, 30 sentyabr tarixindən 25 oktyabr tarixinədək IV, V, VI qruplar üzrə 121 nəfər auditora ixatisasartırma kursları təşkil edilmişdir. Kurslarda 69 nəfər auditor iştirak etməmişdir. Kursların nəticələrinə dair test imtahanları keçirilmiş və 140 nəfər imtahandan müvəffəq, 9 nəfər isə qeyri-müvəffəq bal toplamışdır.Test imtahanlarında müvəffəq bal toplayanlara sertifikatlar təqdim edilmişdir.

Palatanın 2019-cu il üzrə iş planının "Auditor təşkilatlarının əməkdaşları (assistentlər, mütəxəssislər) üçün ixtisasartırma kurslarının keçirilməsi" bəndinin icrasını təmin etmək məqsədilə, Kadr hazırlığı şöbəsi tərəfindən I qrup üzrə 2019-cu il 27 may tarixində auditor təşkilatlarının elektron poçt ünvanlarına məktublar göndərilmişdir. 2019-cu il 24 iyun - 15 iyul tarixlərində kurs keçirilmişdir. Kursda ümumi olaraq 17 nəfər assistent iştirak etmişdir. II qrup üzrə isə 2019-cu il 5 noyabr tarixində auditor təşkilatlarının elektron poçt ünvanlarına məktublar göndərilmişdir. 2019-cu il 25 noyabr – 13 dekabr tarixlərində kurs keçirilmişdir. Kursda ümumi olaraq 13 nəfər assistent iştirak etmişdir. Sonda iştirak edən şəxslərə dinləyici sertifikatı təqdim edilmişdir.

Palatanın 2019-cu il üzrə iş planının "Auditorlar Palatasında ödənişli kursların təşkili" bəndinin icrasını təmin etmək məqsədilə, Kadr hazırlığı şöbəsi tərəfindən "Təşkilatlarda Daxili nəzarətin qurulması və struktur vahidləri (idarə və şöbə) üzrə auditin təşkili" proqramı əsasında daxili auditor kadrlarının hazırlanması üzrə kursların keçirilməsi ilə əlaqədar müəssisələrin elektron poçt ünvanlarına məktublar göndərilmiş və 2019-cu il 10 iyun - 5 iyul tarixlərində 6 nəfər, 25 iyun – 24 iyul tarixlərində isə 7 nəfər müraciət etmiş şəxsə kurslar keçirilmişdir. "Daxili auditin planlaşdırılması" proqramı əsasında isə 2019-cu il 8 iyul – 18 avqust tarixlərində 7 nəfər müraciət etmiş şəxsə kurslar keçirilmişdir. Kursların sonunda iştirakçıların bilik səviyyəsinin yoxlanması üçün imtahan keçirilmiş və 19 nəfər imtahanı müvəffəqiyyətlə bitirmiş şəxslərə sertifikat təqdim edilmişdir.

Azərbaycan Respublikasının Auditorlar Palatası ilə İmtiyazlı Sertifikatlı Mühasiblər Assosiasiyasının (ACCA) Ukrayna, Belarus və Qafqaz ölkələri üzrə rəhbərliyinin 2019-cu il 22 aprel tarixində kadr hazırlığına dair Azərbaycan Respublikasının Auditorlar Palatasında işgüzar görüşü keçirilmişdir.

Keçirilmiş görüşdə Auditorlar Palatasının sədri, Palata sədrinin müşaviri, Palatanın Şurası yanında Elm və auditin metodoloji təminatı üzrə komitənin sədri və Auditorlar Palatasının üzvləri olan 2 auditor və İmtiyazlı Sertifikatlı Mühasiblər Assosiasiyasının (ACCA) Ukrayna, Belarus və Qafqaz ölkələri üzrə rəhbəri xanım Janetta Onişuk, həmin qurumun Regional inkişaf meneceri xanım Viktoriya Volotovska iştirak etmiş və onlar arasında işgüzar müzakirələr aparılmışdır.

Ölkə prezidentinin rəhbərliyi altında ölkəmizdə uğurla həyata keçirilən iqtisadi inkişafın dayanıqlılığını və davamlılığını təmin edə biləcək mühüm bir sənəd kimi dəyərləndirilən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri"ndə nəzərdə tutulmuş kompleks tədbirlər sırasında hesabatlılığın təkmilləşdirilməsi və şəffaflığın artırılması xüsusi əhəmiyyət kəsb edir.

Bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Auditorlar Palatası maliyyə hesabatlılığı sahəsində sahibkarlara dəstək göstərilməsi məqsədilə, 2019-cu il 15-19 iyul tarixlərində "Maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi sahəsində qanunvericiliyin və beynəlxalq standartların tətbiqi" mövzusunda 5 günlük ödənişsiz təlimlər keçirmişdir.

Təlimlər "Praysvoterhauskupers", "Davud Mamedov", "Deloitte & Touche", "Barattson" kimi beynəlxalq auditor şirkətlərinin və təlim mərkəzlərinin beynəlxalq sertifikatlı peşəkar mütəxəssisləri və Auditorlar Palatasının üzvləri tərəfindən keçirilmişdir.

Təlimdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində Yüksək Texnologiyalar Parkı – "YT Park" MMC, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi – "1 №li Bakı Avtonəqliyyat Müəssisəsi" MMC, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi – Elektron Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Auditorlar Palatası, Enerji Məsələlərini Tənzimləmə Agentliyi, İqtisadi Araşdırmalar və Tədris Mərkəzi, SOCAR Baş ofis, SOCAR – Qaz İxrac idarəsi, SOCAR - "Azneft" İstehsalat Birliyi, SOCAR - "Azəriqaz" İstehsalat Birliyi, "Azərsu" ASC, Atəşgah Sığorta – "Star Sığorta Agentliyi" MMC, Baku Hospitality Group, "AGNİ" İstilik Sistemlərinin Satışı, "CNCo.LTD" MMC, "Azermarka" MMC, "Artmood Agency" MMC, "Ante Technologies" MMC, "AZ-Evro TEL" MMC, "Hərbiləşdirilmiş Mühafizə İdarəsi" MMC-ni təmsil edən 42 nəfər nümayəndə iştirak etmişdir.

2019-cu ilin 19 iyul tarixində Auditorlar Palatasında təlimdə iştirak edən şəxslərə sertifikatların təqdim edilməsi mərasimi keçirilmiş və dinləyicilərə sertifikatlar təqdim olunmuşdur.

2019-cu ilin 13 sentyabr tarixində Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan İqtisadçılar İttifaqı və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Bakı şəhərində "Kölgə iqtisadiyyatına qarşı mübarizə iqtisadi inkişafın mühüm amili kimi" mövzusunda beynəlxalq elmi-praktik konfrans çərçivəsində aparılan müzakirə və təhlillər bu problemlə mübarizənin səmərəliliyini artırmaq baxımından faydalı olmuş, iqtisadi inkişafın davamlılığının və şəffaflığın təmin edilməsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi üçün yeni imkanlar yaratmışdır.

Konfransın keçirilməsində əsas məqsəd iqtisadi inkişafın mühüm amili kimi dəyərləndirilən şəffaflığın və hesabatlılığın səviyyəsinin yüksəldilməsi, kölgə iqtisadiyyatına qarşı mübarizənin forma və metodları, maliyyə hesabatlılığı sahəsində qabaqcıl xarici təcrübənin tətbiqi istiqamətləri, maarifləndirmə və əməkdaşlıq sahəsində xarici mütəxəssislərin iştirakı ilə müzakirələr aparılması olmuşdur.

Konfransda Azərbaycan, Avstriya, Böyük Britaniya, Gürcüstan, Ukrayna, Rusiya Federasiyası, Latviya, Qazaxıstan və Çilidən olan kölgə iqtisadiyyatı məsələləri üzrə ixtisaslaşmış alimlər, audit və mühasibatlıq üzrə beynəlxalq və yerli qurumların, ölkəmizin dövlət və qeyri-hökumət təşkilatlarının, elmi-tədqiqat institutlarının, özəl sektorun, kütləvi informasiya vasitələrinin, ümumilikdə 60-dan çox qurumun nümayəndələri iştirak etmişdir.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev tərəfindən 1994-cü il 16 sentyabr tarixində imzalanmış "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 25 illiyinin qeyd edilməsi məqsədilə 2019-cu ilin 16 sentyabr tarixində Auditorlar Palatasında tədbir keçirilmişdir.

Tədbirdə qeyd edilmişdir ki, Vətənimizin bu günü və sabahı üçün qanuni iftixar hissi doğuran bütün nailiyyətlər kimi, "Auditor xidməti haqqında" Qanunun qəbul edilməsi və bunun əsasında ölkədə audit sisteminin formalaşıb inkişaf etməsi də bilavasitə ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı illərin sonlarında qəbul edilmiş digər bir sıra fərman və sərəncamlarda da auditin inkişafı dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi dəyərləndirilmiş və onun qarşısında yeni vəzifələr qoyulmuşdur.

2003-cü ildən başlayaraq ölkə prezidenti möhtərəm cənab İlham Əliyevin Azərbaycan auditinə göstərdiyi daimi diqqət və qayğı nəticəsində audit keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş və onun ölkənin iqtisadi-sosial həyatında rolu və əhəmiyyəti daha da artmışdır. Bunlar, eyni zamanda, ölkə prezidentinin müstəqil auditor xidməti qarşısında qoyduğu beynəlxalq audit standartlarının və praktikasının ölkəmizdə tətbiqi kimi mühüm vəzifələrin icrası sayəsində mümkün olmuşdur.

Sonra ölkədə auditin inkişafında və auditor peşəsinin nüfuzunun yüksəldilməsindəki xidmətlərinə, Palatanın ictimai həyatında fəal iştiraklarına və Auditorlar Palatasında uzun müddət səmərəli əmək fəaliyyətlərinə görə Auditorlar Palatasının əməkdaşları və üzvlərinə "Fəxri auditor" döş nişanları və "Fəxri fərman"lar təqdim edilmişdir.

**Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının (APFM), Azərbaycan İqtisadçılar İttifaqının və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 2019-cu il 10-12 oktyabr tarixlərində "Mühasibat uçotu və audit: müasir çağırışlar" mövzusunda Bakıda Avropanın və Asiyanın bir çox ölkələrinin nüfuzlu qurumlarının nümayəndələrini cəmləşdirən "Mühasiblərin və Auditorların VI Avrasiya Forumu" keçirilmişdir. Forumda 20 ölkədən xarici nüməyəndələr, peşəkar mütəxəssislər və eyni zamanda, yerli qurumların nümayəndələri iştirak etmişdir.**

Auditorlar Palatası audit sahəsində inkişaf etmiş qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiq edilməsini, eləcə də beynəlxalq audit praktikası əsasında respublikada auditin keyfiyyətinin yüksəldilməsini təmin etmək məqsədilə beynəlxalq əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirir.

Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Gürcüstan Respublikasının Mühasiblər, Auditorlar və Məsləhətçilər Cəmiyyətinin təşkilatçılığı ilə 2019-cu il 23 fevral tarixində Tbilisi şəhərində keçirilən Gürcüstan hökuməti ilə razılaşdırılmış mühasibat uçotu,

maliyyə hesabatlılığı və audit Milli Fondunun təsis edilməsinin təntənəli mərasimində iştirak etmişdir. Mərasimdə 15 ölkədən 50-yə yaxın nümayəndə iştirak etmişdir. Palatanın sədri Vahid Novruzov tədbir iştirakçılarına ölkə prezidenti cənab İlham Əliyevin Azərbaycan auditinə göstərdiyi diqqət və qayğı barəsində və eləcə də onun inkişaf istiqamətlərinə dair geniş məlumat verərək, qarşılıqlı fikir mübadiləsi aparmışdır.

2019-cu il yanvar ayının 30-da Auditorlar Palatasında BDO-nun Baş Ofisində Avropa, Yaxın Şərq və Afrika (AYŞA) üzrə Baş direktoru, Norveç ofisinin keçmiş idarəedici partnyoru Trond-Morten Lindberg və BDO İsrail ofisinin idarəedici patnyoru Şahar Ziv ilə işgüzar görüş keçirilmişdir. Görüşdə qonaqlara ölkəmizdə şəffaflığa və hesabatlılığa verilən önəm, Azərbaycan auditi, Auditorlar Palatasının tarixi, dövlət proqramlarında iştirakı, kölgə iqtisadiyyatının azaldılması sahəsində görülən tədbirlər, habelə "BDO Azərbaycan" MMC-nin fəaliyyəti və uğurları barəsində ətraflı məlumat verilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır. Cənab Lindberg audit sahəsində görülən işlərin beynəlxalq tələblərə müvafiqliyini vurğulamış, cənab Şahar Ziv isə İsrail-Azərbaycan audit tənzimləyicilərinin əməkdaşlığının qurulması sahəsində müvafiq addımların atılmasına müsbət münasibətini bildirmişdir.

2019-cu il 30 yanvar tarixində Belçikanın Brüssel şəhərində ACCA və EY təşkilatları tərəfindən birgə təşkil edilmiş "Rəqəmsal və süni intellektin audit və maliyyə mütəxəssislərinə təsiri: dağıdıcı texnologiyaların imkanlarının istifadə edilməsi" mövzusunda konfransda Auditorlar Palatasının Auditdə innovasiyaların tətbiqi şöbəsinin müdir müavini Qoşqar Əhmədov iştirak etmişdir.

Tədbirdə "Rəqəmsal əsrdə mənəvi hissə", "Gələcəyin biznes modelləri: sistemlər, oxşarlıq və xüsusiyyətlər", "Növbəti nəsil: böyük mühasibat firmalarında istedadın idarə olunması", "Rəqəmsal əsrdə etika və etibarlılıq", "Sosial, mobil və bulud (SoMoClo) texnologiyaları" mövzuları üzrə məruzələr dinlənilmişdir.

2019-cu il 10-12 aprel tarixlərində Maltada ICAEW və Malta Mühasiblər İnstitutu təşkilatları tərəfindən birgə təşkil edilmiş "2019 Mühasibatlıq Peşəsi üzrə Strateji Forumu"nda (APSF) Auditorlar Palatasının Keyfiyyətə Nəzarət Komitəsinin Apellyasiya Şurasının sədri İslam Bayramov iştirak etmişdir.

Tədbir zamanı peşəkar mühasibatlıq təşkilatlarına iqtisadi artımlarını və əlaqələrini ictimai marağa uyğun olaraq gücləndirməyə, APSF texnologiya və təhsil seminarı və Keyfiyyət Təminatı Şəbəkələri (QAN) də daxil olmaqla illik iclasda ortaya çıxan bütün təşəbbüslərdən məlumatlı olmağa imkan yaranmışdır.

Rusiya Federasiyasının Özünütənzimləyən auditorlar təşkilatı olan "Содружество" Assosiasiyasının dəvəti ilə Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov və Maliyyə və təşkilati-texniki təminat idarəsinin rəisi, Auditorlar Palatası Şurasının üzvü Vəli Rəhimov 2019-cu il 24-26 aprel tarixlərində Rusiya Federasiyasının Özünütənzimləyən auditorlar təşkilatı olan "Содружество" Assosiasiyası (CRO AAC) tərəfindən Moskva şəhərində keçirilmiş beynəlxalq elmi-praktik konfransda iştirak etmişdir.

Auditorlar Palatasının sədri V.Novruzov tədbir çərçivəsində təşkil olunan "Avrasiya regionu ölkələrində auditin, mühasibat uçotunun və beynəlxalq maliyyə hesabatı standartlarının tətbiqinin inkişafı üzrə aktual məsələlər" adlı beynəlxalq elmi-praktik konfransda "İqtisadiyyatın kölgələşməsinin azaldılmasında auditin rolu" mövzusunda məruzə ilə çıxış etmişdir. Məruzədə tədbir iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə ölkəmizdə son dövrlərdə kölgə iqtisadiyyatının azaldılması, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə istiqamətində görülən işlər və ölkə prezidentinin müstəqil auditə göstərdiyi böyük diqqət və qayğı barədə geniş məlumat verilmişdir. Eyni zamanda, tədbirdə iştirak edən digər xarici ölkələrin audit qurumlarının nümayəndələri ilə işgüzar görüşlər keçirilmiş və təcrübə mübadilələri aparılmışdır. Konfransda 13 ölkədən 100-dən çox nümayəndə iştirak etmişdir.

Tədbirin sonunda Auditorlar Palatasının sədri, professor Vahid Novruzov Rusiya Federasiyasının Özünütənzimləyən auditorlar təşkilatı olan "Содружество" Assosiasiyasının İdarə Heyətinin 2019-cu il 24 aprel tarixli 394 nömrəli qərarı ilə "Audit sahəsindəki xidmətlərinə görə" medalı ilə təltif edilmişdir.



Auditorlar Palatasının Şurası yanında Elm və auditin metodoloji təminatı komitəsinin sədri Nəcəf Talıbov 2019-cu ilin 21 may tarixində Moskva şəhərində təşkil olunan "Mühasib və auditor peşəsinin əsası olan Etika Məcəlləsi: çağırışlar və imkanlar" adlı beynəlxalq konfransda, habelə 2019-cu ilin 22 may tarixində Avrasiya regionundan olan İFAC üzvlərinin iştirakı ilə keçirilən dəyirmi masada iştirak etmişdir. Hər iki tədbirin təşkilatçıları Rusiya Auditorları İttifaqı, IFAC, IESBA, IAASB, ICAEVV və Rusiya Peşəkar Mühasiblər İnstitutu (İPBR) olmuşdur. Konfransda IESBA sədri Stavros Tomadakis "Böhrandan sonrakı dövrdə etika əsas sual kimi", IESBA-nın texniki direktorları Ken Sionq və Ceyms Qann "Yeni Etika Məcəlləsi" mövzularında məruzələr təqdim etmiş, Rusiya, Qazaxıstan, Özbəkistan, Moldova və ölkəmizin nümayəndə heyətləri bu sahədəki yerli təcrübə barəsində məlumat vermişlər.

2019-cu ilin 13 iyun tarixində "Flame Towers" Baku otelində Azərbaycan Respublikasının Auditorlar Palatası və Rusiya Federasiyasının Özünütənzimləyən auditorlar təşkilatı olan "Содружество" Assosiasiyası arasında Əməkdaşlıq Sazişi, Azərbaycan Respublikasının Auditorlar Palatası və mənzil qərargahı Londonda yerləşən Beynəlxalq İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) arasında isə Anlaşma Memorandumu imzalanmışdır.

Azərbaycan Respublikasının Auditorlar Palatası və Rusiya Federasiyasının Özünütənzimləyən auditorlar təşkilatı olan "Содружество" Assosiasiyası arasındakı Əməkdaşlıq Sazişinin əsas məqsədi Beynəlxalq Maliyyə Hesabatı Standartlarının (BMHS), Beynəlxalq Audit Standartlarının (BAS), habelə Beynəlxalq Mühasiblər Federasiyası (BMF) tərəfindən qəbul olunan digər standartların ARAP və ÖAT SA üzvlərinin peşə fəaliyyətində tətbiqinə kömək göstərilməsi, tərəflərin üzvlərinin tədrisi və ixtisasının artırılması üçün ARAP-ın və ÖAT SA-nın tədris mərkəzi şəbəkələri vasitəsi ilə peşə sertifikatlaşdırmasının inkişafı sahəsində əməkdaşlıq edilməsi, ARAP və ÖAT SA üzvlərinin peşəkarlığının inkişafı məsələlərində qarşılıqlı fəaliyyət göstərilməsi, tərəflərin mütəxəssisləri arasında işgüzar ünsiyyətə əlverişli şərait yaradılmasından ibarət olmuşdur.

Azərbaycan Respublikasının Auditorlar Palatası və İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) arasındakı Anlaşma Memorandumunun məqsədi isə hüquqi münasibətlər yaratmaq niyyəti olmadan Tərəflər arasında qarşılıqlı əməkdaşlıq ruhunda anlaşma yaratmaq, qarşılıqlı faydaya xidmət edən əməkdaşlıq imkanlarını araşdırmaq, hər birinin və qarşılıqlı maraqların qorunması üçün tərəflərin əməkdaşlıqla bağlı müvafiq rolları və məsuliyyətlərini müəyyən etməkdən ibarət olmuşdur.

Tədbirin sonunda qurumlar arasında əməkdaşlığa dair sənədlər imzalanmış və Azərbaycanda auditor xidmətinin inkişafındakı xüsusi xidmətlərinə görə Rusiya Federasiyasının Özünütənzimləyən auditorlar təşkilatı olan "Содружество" Assosiasiyasının (ÖAT SA) prezidenti Şeremet Anatoliy Daniloviçə Auditorlar Palatasının "Fəxri üzv" statusu verilmiş, Rusiya Federasiyasının Özünütənzimləyən auditorlar təşkilatı olan "Содружество" Assosiasiyasının (ÖAT SA) baş direktoru Nosova Olqa Aleksandrovna isə Auditorlar Palatasının "Fəxri auditor" döş nişanı ilə təltif olunmuşdur.

Tədbir zamanı qurumlar arasında auditin mövcud durumu, onların qarşısında duran problemlərin həlli yolları, maliyyə hesabatlılığı sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiqi istiqamətləri barədə müzakirələr aparılmışdır.

Tədbirdə Rusiya Federasiyasının Özünütənzimləyən auditorlar təşkilatı olan "Содружество" Assosiasiyası və İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyasının nümayəndə heyəti ilə birgə, dövlət qurumlarının nümayəndələri, Auditorlar Palatasının əməkdaşları və üzvləri iştirak etmişlər.

Tədbir "Azərbaycan", "MİR" televiziyalarında və AZƏRTAC-da geniş işıqlandırılmışdır.

2019-cu ilin 26, 27, 28 iyun tarixlərində Niderland Krallığının Amsterdam şəhərində Kiçik və orta müəssisələr üçün Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) tərəfindən təşkil edilmiş EFAA Ekspert Qruplarının iclasında, EFAA Beynəlxalq konfransında və EFAA İllik Ümumi Yığıncağında Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin müşaviri Fəqan Qarayev iştirak etmişdir.

Beynəlxalq konfrans zamanı rəqəmsallaşmanın avropalıların həyatlarına, işlərinə göstərdiyi əhəmiyyətli təsir və texnologiyaların - xüsusən də süni intellekt və blockchain - və əlaqəli kibertəhlükəsizlik riskinin mühasibat peşəsinə və bütünlüklə mühasibat təcrübəsinə olan təsiri müzakirə olunmuşdur.

2019-cu ilin 23-24 oktyabr tarixlərində Belçikanın Brüssel şəhərində Kiçik və orta müəssisələr üçün Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) tərəfindən təşkil edilmiş EFAA Ekspert Qruplarının iclasında, EFAA-ACE birgə konfransında və EFAA-nın növbədənkənar ümumi yığıncağında Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin müşaviri Fəqan Qarayev iştirak etmişdir.

Tədbirdə müasir şəraitdə mühasibat uçotunun və auditin gələcəyi, mühasibatlıq və audit sahəsində texnologiyanın və innovasiyaların tətbiqi formaları, dünya iqtisadiyyatında texnoloji dəyişikliklərin və innovasiyların baş verdiyi müasir dövrdə hesabatlılıq sahəsində yaranan problemlərin aradan qaldırılması yollarına dair çıxışlar dinlənilərək geniş müzakirələr aparılmışdır.

2019-cu ilin 24 oktyabr tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası ilə İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) arasında Auditorlar Palatasında görüş keçirilmişdir.

Görüşdə ACCA-nın Qafqaz ölkələri üzrə rəhbəri Zhanetta Onyshuk, MDB ölkələrinin portfeli üzrə rəhbəri Vera Starodubtseva, İnkişaf etməkdə olan bazarlar üzrə müvəqqəti direktor Magda Krupa Hernandez, Regional inkişaf üzrə menecer (işəgötürənlər) Denys Shchur, Regional inkişaf üzrə menecer (universitetlər, tədris provayderləri və milli orqanlar) Victoria Volotovska, Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Palatanın bir sıra əməkdaşları və üzvləri iştirak etmişlər.

2019-cu ilin 13 dekabr tarixində isə əldə olunmuş razılığa əsasən, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) təqdimat mərasimi zamanı Azərbaycan Respublikasının Auditorlar Palatası və Gürcüstanın Maliyyə Nazirliyinin Mühasibat uçotu, hesabatlılıq və auditə nəzarət xidməti (SARAS) arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. Tədbir zamanı Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2019-cu il 11 dekabr tarixli 315/6 saylı "Azərbaycan Respublikasının Auditorlar Palatasına "Fəxri üzv" qəbul edilməsi barədə" qərarına əsasən, Gürcüstanın Maliyyə Nazirliyinin Mühasibat uçotu, hesabatlılıq və auditə nəzarət xidmətinin rəhbəri Yuri Dolidzeyə "Fəxri üzv" statusu verilmişdir.

Tədbirdə Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə, Gürcüstan Respublikasının Mühasibat uçotu, hesabatlılıq və audit xidmətinin rəhbəri Yuri Dolidze, AMEA-nın müxbir üzvü Akif Musayev, Azərbaycan Risk Peşəkarları Assosiasiyasının prezidenti Günay Şahbazova, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Mühasibat uçotu və audit kafedrasının müdiri Sifariz Səbzəliyev, Palatanın Aparat rəhbəri Qəşəm Bayramov, komitə sədri Nəcəf Talıbov və digər çıxış edənlər Məcəllənin auditor və mühasib peşələrinin inkişafında müstəsna əhəmiyyətə malik olduğunu vurğuladılar.

2019-cu ildə Palata Şurası yanında adları qeyd olunan peşəkar auditorların rəhbərlik etdiyi aşağıdakı komitələr fəaliyyət göstərmişlər:

**I. Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitə - Nəcət Talıbov, "TNM Audit" MMC-nin direktoru-auditor.**

**II. Keyfiyyətə nəzarət üzrə komitə – Vəli Kərimov, sərbəst auditor.**

**III. Beynəlxalq audit standartları və maliyyə hesabatlarının beynəlxalq standartları üzrə komitə - Namiq Abbaslı, "ANR Audit" MMC-nin direktoru-auditor.**

**IV. Beynəlxalq əlaqələr üzrə komitə - Fəqan Qarayev, Auditorlar Palatası sədrinin müşaviri.**

**V. Auditor təşkilatlarının inkişafına dəstək üzrə komitə - Zamin Hüseynov, "ABAK-Az Crovve LTD" MMC-nin direktoru-auditor.**

**VI. Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitə - Elçin Qurbanov, "VXA Audit" MMC-nin direktoru-auditor.**

**VII. Şəffaflığın təminatı, dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitə - Üzeyir Fətiyev, sərbəst auditor.**

**VIII. Auditdə innovasiyaların tətbiqi və informasiya siyasəti üzrə komitə - Yunis Salayev, "BDO Azərbaycan" MMC-nin direktoru-auditor.**

**IX. Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə - Abbasəli Qurbanov, "Analitik - Audit" MMC-nin direktoru-auditor.**

**X. Etika, mübahisələr və intizam komissiyası - İbiş Əliyev, sərbəst auditor.**

**Komitələr öz fəaliyyətlərini Palatanın struktur bölmələri ilə bərabər iş planına müvafiq formada qurmuş və səlahiyyətləri çərçivəsində öhdəliklərini yerinə yetirmişlər. Komitələrin fəaliyyətləri hesabatın müvafiq bölmələrində əksini tapmışdır.**

2019-cu il ərzində Auditorlar Palatası Şurasının 9 iclası (fəaliyyətə başladığı dövrdən hesabat ilinin sonunadək üç yüz on altı iclas) keçirilmişdir. Bunun üçün əvvəlcədən məruzəçilər tərəfindən hazırlanmış müvafiq qərar layihələri və onlara əlavələr toplanmış, onlara dair rəyçilər tərəfindən verilmiş rəylər alınmış və Şura iclasları üçün hazırlanmışdır. Şura iclaslarında, əsasən auditor fəaliyyətini tənzimləyən 22 normativ hüquqi sənədin, təlimatların, standartların və qaydaların müzakirəsi ilə əlaqədar qərarlar qəbul edilmişdir.

**İnformasiya-təbliğat və nəşriyyat fəaliyyəti**

Auditorlar Palatasının təşkilatçılığı və iştirakı ilə auditin aktual problemləri üzrə keçirilən konfransların, simpoziumların, "dəyirmi masa"ların, seminarların və digər tədbirlərin nəticələri haqqında geniş məlumat mütəmadi olaraq Palatanın internet səhifəsində və sosial şəbəkələrdə yerləşdirilmişdir.

Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorlar haqqında məlumatlar mütəmadi olaraq yenilənmiş və Palatanın internet səhifəsində yerləşdirilmişdir.

Gülçin Quliyevanın «Müasir Azərbaycanın ilhamverici qadınları» kitabında Auditorlar Palatasının üzvü olan "L.B. Audit Xidməti" MMC-nin direktor-auditoru Lamiyə Bayramova haqqında «Auditor Lamiyə Bayramova" mövzusunda məqalə dərc edilmişdir.

"L.B. Audit Xidməti" MMC-nin direktor-auditoru Lamiyə Bayramovanın Azərbaycan-Türkiyə İş Adamları Birliyinin təsis etdiyi "Eco Vision" rüblük iş və iqtisadiyyat jurnalının 2019-cu il dekabr tarixli 30-cu nömrəsində "Kadr resurslarına böyük önəm veririk" mövzusunda müsahibəsi dərc edilmişdir.

Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun «Xalq» qəzetinin 2019-cu il 29 avqust tarixli nömrəsində «Kölgə iqtisadiyyatına qarşı mübarizə metodları Bakıda beynəlxalq konfransda müzakirə ediləcək» adlı müsahibəsi dərc edilmişdir. Müsahibədə kölgə iqtisadiyyatının mahiyyəti, konfransın əhəmiyyəti və müzakirə olunacaq məsələlər barədə fikirlər öz əksini tapmışdır.

Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun "Azərbaycan" qəzetinin 2019-cu il 8 sentyabr tarixli nömrəsində "25 il dövlətin, mülkiyyətçilərin və auditorların mənafeləri keşiyində" adlı məqaləsi dərc olunmuşdur. Məqalədə şəffaflığın təminatçısı kimi səmərəli və stimullaşdırıcı nəzarət sisteminin yaradılmasının hər bir ölkənin sosial-iqtisadi inkişafında vacib amillərdən biri olduğu qeyd edilərək, ölkəmizdə uğurla aparılan iqtisadi siyasətdə şəffaflığa və hesabatlılığa verilən önəm və bu sahədə əldə olunan uğurlar ətraflı təhlil edilmişdir.

Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədov və Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini Elşad Səmədzadənin «İqtisadiyyat» qəzetinin 2019-cu il 26 sentyabr – 3 oktyabr tarixli nömrəsində «Bakıda kölgə iqtisadiyyatına qarşı mübarizə iqtisadi inkişafın mühüm amili kimi» mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir» adlı birgə məqaləsi dərc edilmişdir.

Palatanın iş planında, "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası"nda (2012-2020-ci illər) auditə dair kitabların, dərs vəsaitlərinin, metodik vəsaitlərin, təlimat, qayda, məlumat və təbliğat xarakterli materialların nəşr etdirilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilmişdir.

Auditorlar Palatasının üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyasından (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasından (EFAA) 2019-cu ildə daxil olan məlumat xarakterli sənədlər xidməti istifadə üçün qəbul edilmiş və verilən sorğular cavablandırılmışdır.

Auditorlar Palatası tərəfindən 2019-cu il üzrə fəaliyyət planı 2020-ci ilin 11 yanvar tarixində İFAC-a təqdim olunmuş və həmin plan IFAC-ın internet səhifəsində yerləşdirilmişdir.

Auditorlar Palatası Azərbaycan iqtisadiyyatının inkişafı naminə öz üzərinə düşən öhdəlikləri, vəzifə və funksiyaları sonrakı illərdə də layiqincə yerinə yetirmək əzmindədir.

# "COVİD-19" SİNDROMU, ONUN SOSİAL SİMPTOMLARI VƏ İQTİSADİ FƏSADLARI




Artıq yüz gündən artıqdır ki, bəşəriyyət dünyanı bürüyən gözəgörünməz düşmənlə - koronavirusla, yəni "COVİD-19"-la ölüm-dirim mücadiləsi aparır. Planetin 7 milyard əhalisinin yarıdan çoxu, təxminən 4 milyard insan bu virusdan qorunmaq üçün evə qapanıb.

Bununla yanaşı, virusa yoluxanların, həyatını itirənlərin sayı günbəgün artmaqdadır. Saatbasaat dəyişən rəqəmlər bəşəriyyətin üzləşdiyi böyük çağırışdan, milyonların faciəsindən xəbər verir. İtkilər, fəsadlar fərqlidir - hər qitəyə, hər ölkəyə, hətta hər bir şəhərə görə dəyişir. Belə ki, Çinin Uhan şəhərindən başlayan bu dəhşətli virusun yayılması nəticəsində, əgər yoluxanların sayına görə Çin birinci yerdə idisə, hazırda 212 dövlət arasında 11-ci yerdə qərar tutub. Rəqəmlərin müqayisəsi ölkələr üzrə virusla mübarizənin səmərəliliyini ön plana çəkir. Azərbaycanın adı bu ölkələr arasında nümunəvi ölkə kimi göstərilir və bunu Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adanom Qebreyesus da vurğulamışdır.

Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi kimi vaxtında qəbul edilən düzgün qərarlar itkilərin minimuma endirilməsinə imkan yaratmışdır. Eyni zamanda, dövlət əhalinin ən müxtəlif təbəqələrinə maksimum sosial dəstək göstərir. Heç də təsadüfi deyil ki, Azərbaycan koronavirusa qarşı mübarizə tədbirlərinin səmərəliliyi ilə seçilən ölkələr arasında öncül yeri tutur.

Bu məqalədə əsas məqsədimiz dünyanı cənginə alan "COVİD-19", onun sosial-iqtisadi fəsadları, ölkəmizin pandemiyaya qarşı mübarizə strategiyası barəsində fikirlərimizi, eləcə də yaşadığımız çətin günlərin bu və ya digər məqamlarını oxucularla bölüşməkdir.

Ölkəmizin pandemiya şəraitində atdığı addımları, prezidentin problemə qarşı strateji yanaşmasının üstünlüklərini real olaraq qiymətləndirmək üçün son 100 gün ərzində dünyada və Azərbaycanda cərəyan edən hadisələrə qısa ekskurs etməyə ehtiyac hiss olunur. Başqa sözlə, problem özünə qlobal müstəvidə yanaşmanı tələb edir.

Dekabrın 31-də yeni koronavirusun törətdiyi xəstəlik barəsində ilk məlumat yayıldı. Bu xəstəlik çox keçmədən epidemiyaya çevrildi. Lakin sanki dünya nə baş verdiyinin fərqində deyildi. Amerikada, Avropada elə güman olunurdu ki, virusun onlara əli çatmaz. Dünya sanki bir anlığa qloballaşdığını unutdu və bu, ona çox baha başa gəldi. Söhbət artıq 4 milyona yaxın yoluxmadan və 300 minə yaxın ölüm faktından gedir. Həyəcan təbili ilk olaraq yanvarın ortalarında Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən çalındı. Bəzi ölkələr dərhal hərəkətə keçdilər. Bəzi ölkələr isə buna ciddi yanaşmadılar. Maraqlı burasındadır ki, koronavirusla bağlı ən ağır vəziyyət ABŞ-da (artıq yoluxanların sayı 1,5 milyona yaxınlaşır), öz səhiyyə sistemi ilə öyünən Avropada (dünyada yoluxanların sayının 2/3 hissəni təşkil edir) müşahidə olunur. Paradoks olsa da, reallıq bundan ibarətdir. Almaniyanın tanınmış nəşrlərindən birinin gəldiyi nəticə diqqəti cəlb edir: Avropa 2-ci dünya müharibəsindən sonra ən böyük sınaqla üzləşib. O, uğursuzluq ardınca uğursuzluğa düçar olur. Əgər belə getsə, Avropa İttifaqı dağıla bilər.

**Hər bir dövlətin pandemiya ilə bağlı öz siyasəti, necə deyərlər, "milli" yanaşması mövcuddur. Bununla belə, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın xalqa müraciətində qeyd etdiyi bir cümləni xatırlamaq lazımdır: "Özgə dərdi olmur. Ağrı və iztirablar sərhəd tanımır".**

Mehriban xanımın təbirincə desək, "Səhiyyə sahəsində büdcələri milyardlarla ölçülən, nəhəng elmi intellektual potensiala, qabaqcıl texnologiyalara malik olan ən inkişaf etmiş ölkələr belə, epidemiyanın yayılmasının qarşısını ala bilmədilər". Doğrudan da, xəstəlik o qədər sürətlə yayılır ki, istənilən ölkənin səhiyyə sistemini çökdürə bilər. İnkişaf etmiş bəzi ölkələrdə xəstəxanaların dolub-daşdığının, xəstələrin dəhlizlərdə yerləşdirildiyinin, müalicə imkanlarının tükəndiyinin, bütövlükdə ölüm hallarının artdığının şahidi oluruq. Təbiidir ki, vəziyyət bu cür nəzarətdən çıxsaydı, Azərbaycanı da oxşar aqibət gözləyə bilərdi. Üstəlik, virus artıq qonşularımıza (xüsusilə, İranda çox geniş yayılmışdı) gəlib çatmışdı.

Azərbaycan hökumətinin həmin vaxt və sonradan atdığı addımlar, qəbul edilən qərarlar göstərdi ki, vəziyyət daima prezidentin nəzarətindədir.

Koronavirusla mübarizəni bəzən müharibəyə bənzədirlər. Hər bir müharibədə döyüş strategiyası və döyüş taktikası olur. Hazırda bu strategiyanı və taktikanı tətbiq etmək çətindir, çünki bir tərəfdən gözə görünmür, digər tərəfdən isə vəziyyət çox sürətlə dəyişir.

Bütün çətinliklərə baxmayaraq, Prezident İlham Əliyevin problemə baxışı və risklərin dəyərləndirilməsinə əsaslanan uzaqgörən qərarları əsas məqsədə - virusun yayılmasının qarşısının alınmasına və yoluxma zəncirinin qırılmasına gətirib çıxardı. Prezident İlham Əliyevin siyasəti pandemiyanın ilk günündən insan amilinə hədəflənmişdir: "Bizim üçün prioritet məsələ insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir". Sərt və qabaqlayıcı tədbirlər nəticəsində vəziyyəti tezliklə nəzarət altına almaq mümkün oldu. Yoluxanlarla sağalanların say nisbətində müsbət dinamika yarandı.

Koronavirus xəstələrinin əksəriyyəti son illərdə tikilmiş 20-dən çox dövlət xəstəxanasında mükəmməl müalicə alıb və almaqdadır. Epidemiyanın tüğyan etdiyi günlərdə Bakıda 575 çarpayılıq ən müasir "Yeni klinikanın açılması, Sumqayıt Kimya Sənaye Parkında gündə 250 min tibbi maska istehsal edən müəssisənin işə salınması böyük üstünlük deməkdir".

Hazırda prezidentin göstərişi ilə 10 modul tipli xəstəxana inşa olunur. Bu xəstəxanaların işə düşməsi 2 min əlavə çarpayı deməkdir. Bundan əlavə, koronavirusa şübhə yaranan andan bu günə kimi və bu gün də fəaliyyət göstərən 23 laboratoriyanı da bura əlavə etmək lazımdır ki, burada 170 mindən çox test keçirilmişdir.

**Pandemiya dövründə hər bir dövlətin qarşısında iki əsas alternativ seçim durur:**

***1. İnsanların sağlamlığını və həyatını qorumaq;***

***2. İqtisadiyyatı xilas etmək.***

Azərbaycan iqtisadi riskləri nəzərə almadan və tərəddüd etmədən birinci variantı seçdi. Heç şübhəsiz, məhdudlaşdırıcı tədbirlər iqtisadi inkişafa böyük zərbə vuracaq, büdcə gəlirlərinin azalmasına səbəb olacaqdır. Qeyd edək ki, 2020-ci ilin dövlət büdcəsində 1 barel neftin qiyməti 55 dollar nəzərdə tutulduğu halda, dünya bazarında neftin qiyməti bəzi günlərdə 15 dollara düşdü. Digər tərəfdən, prezident karantin rejimindən zərər çəkən insanları, xüsusilə kiçik sahibkarları, muzdla çalışanları, işsizləri və əhalinin digər həssas təbəqələrini unutmadı. İnsanlar əmin idilər ki, dövlət hər zaman vətəndaşın yanında olacaqdır.

Hər bir vətəndaşına sahib çıxan dövlət çox mühüm iki dəstək paketi təqdim etdi.

Əvvəlcə epidemiya dövründə əhalinin sosial müdafiəsi sahəsində aparılan tədbirləri nəzərdən keçirək. Martın 19-da Prezident İlham Əliyev ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluğa, sahibkarlıq subyektlərinə pandemiyanın təsirinin azaldılmasını nəzərdə tutan sərəncam imzaladı. Çox geniş, əhatəli sərəncama əsasən, yuxarıda qeyd olunan tədbirlərin maliyyələşdirilməsi məqsədilə Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayrıldı. Həmçinin, pandemiyanın ölkə həyatının ayrı-ayrı sahələrinə təsirini qiymətləndirmək və təkliflər hazırlamaq məqsədilə İqtisadiyyat, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlərinin və Mərkəzi Bankın sədrinin rəhbərliyi ilə dörd işçi qrupu yaradıldı.

Dövlət başçısının müvafiq Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında 10 tədbir öz əksini tapdı ki, bunlar da özündə pandemiyadan zərər çəkmiş fəaliyyət sahələrində çalışan muzdlu işçilərin, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsini, həmçinin yaxın və orta müddətdə məşğulluq tədbirlərini ehtiva edirdi. Bu tədbirlərin 2,5 milyon insanı əhatə etməsi sosial dəstəyin indiyə qədər görünməmiş miqyasından xəbər verir.

Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və makroiqtisadi və maliyyə sabitliyini təmin etmək məqsədilə vergi güzəştləri də daxil olmaqla 3,5 milyard manatdan artıq və ya 2 milyard dollardan çox sosial-iqtisadi dəstək paketi qəbul olunmuşdur. Dövlət bu xərci ciddi iqtisadi risklər fonunda çəkir.

Bütövlükdə, dövlət sektoru üzrə 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanılmaqla, qeyri-dövlət sektorunda çalışan 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Hər hansı əsassız ixtisarlara yol verilməməsi üçün bütün dövlət qurumlarına tapşırıqlar verilib, sahibkarlara müraciət olunub. 44 min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcəkdir. Həmçinin, dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar yararlanacaqdır. Bura, həmçinin prezidentin sərəncamı ilə tibb işçilərinin əməkhaqlarının 3-5 dəfə artırılmasını da əlavə etmək lazımdır. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq iki ay ərzində vəsait ödənilir.

Pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə 2021-ci ilin yanvarın 1-dək olan dövr üçün vergi güzəştləri və vergi tətilləri ediləcəkdir.

Əhalinin məşğulluq imkanlarının artırılması məqsədilə DOST İş Mərkəzi tərəfindən 50 min ödənişli ictimai iş yerlərinin yaradılmasına başlanılıb. Bunun üçün 30 milyon manat vəsait ayrılıb. Ümumilikdə, ictimai iş yerlərinin sayı 90 minə çatıb.

Pandemiya nəticəsində işsiz qalan şəxslərə 190 manat məbləğində birdəfəlik ödəmə həyata keçirilir. Prezidentin tapşırığı ilə birdəfəlik ödəmə 600 min şəxsə ödəniləcək və aprel-may aylarını əhatə edəcəkdir. Aprelin 1-dən ünvanlı sosial yardım alan ailələrin sayında 10 min artım olub. Ümumilikdə, 80 min ailənin 330 min üzvü ünvanlı sosial yardım proqramından faydalanır. Qeyd etmək lazımdır ki, hələ pandemiya başlayan zaman dövlət başçısının sərəncamı ilə koronavirusla mübarizə fondu yaradılmışdı və bura Prezidentin Ehtiyat Fondundan 20 milyon manat köçürülmüşdür. Bu Fond yaradılandan indiyə qədər ora fiziki və hüquqi şəxslər, müxtəlif nazirliklər, dövlət qurumları və vətəndaşları tərəfindən 95 milyon manata yaxın pul köçürülmüşdür və Fondun həcmi hazırda 115 milyon manat təşkil edir. Fondun vəsaitlərinin xərclənməsinə nəzarət məqsədilə xüsusi komissiya yaradılmışdır.

Beləliklə, pandemiyaya qarşı mübarizə tədbirlərinin sosial-iqtisadi nəticələri və həcmi fantastik və möhtəşəm rəqəmlər təşkil edir.

Koronavirusla mübarizədə Azərbaycan beynəlxalq əməkdaşlıq sahəsində də nümunə göstərir. Belə ki, Azərbaycan hökuməti Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) ilkin dövrdə 5 milyon dollar, sonrakı dövrdə də digər ölkələrə yardım məqsədilə ÜST-ə daha 5 milyon dollar ianə ödəmiş və bütövlükdə bu rəqəm 10 milyon dollar təşkil etmişdir. Ümumiyyətlə, Azərbaycan dövləti 10-dan artıq dövlətə pandemiya ilə mübarizədə maddi yardım göstərmişdir.

**Bəs, postpandemiya, postkoronavirus dövründə bizi nə gözləyir?**

Son günlər dünyada pandemiyanın səngiməsi yumşaldıcı tədbirlərin qəbul edilməsini şərtləndirir.

Fikrimizcə, pandemiyadan sonrakı dövrdə insanların qəddarlıqdan, sərtləşmədən mülayimliyə, xeyirxahlığa doğru münasibəti formalaşmalıdır.

**Burda Nizami Gəncəvinin şeiri yada düşür:**

***Qəlbini çalmasın bu mal, bu dövlət.***
***Azı bir zillətdir, çoxu fəlakət***
***Göydə ol, yerdə ol, fərqi yox bunun.***
***Torpaqsan, yenə də torpaqdır sonun.***

Tarix boyu xalqları çətin və böhranlı vəziyyətlərdən liderlərin siyasi iradəsi və uzaqgörənliyi xilas edib. Biz dövlət başçısı ilə birlikdə çox çətinliklərdən, sınaqlardan çıxmışıq. Hesab edirəm ki, koronavirusa da qalib gələcəyik. Əlbəttə, yenə də birlikdə.

**F.M.Qarayev**
**BDU-nun dosenti**

# Fəxrəddin Altun: Türkiyənin strategiyası COVID-19 epidemiyasının gedişatını dəyişdirdi

Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsinin rəhbəri Fəxrəddin Altun "Washington Times" qəzetində dərc olunan məqaləsində dünyanın yeni növ koronavirus (COVID-19) infeksiyasına ən çox qurban verən ölkəsi olan ABŞ-a Türkiyənin müvəffəqiyyətinin sirlərini izah edib.

AZƏRTAC xəbər verir ki, məqalədə diqqətə çatdırılır ki, Türkiyə hökuməti bütün vətəndaşlarına yeni növ koronavirus infeksiyası ilə bağlı pulsuz olaraq tibbi xidmət göstərir. Səhiyyə infrastrukturuna vaxtında qoyulan sərmayə mühüm bir məqamda öz səmərəli nəticəsini göstərib: "Atdığımız addımlarla gedişatı tərsinə dəyişə bildik. Yeni yoluxmaların artım tempi ilk yoluxma faktının aşkarlandığı martın əvvəlindən bu yana ən aşağı səviyyəyə enib. Hər gün xəstəxanalardan müalicə olunub sağalaraq evə buraxılan vətəndaşlarımızın sayı yeni yoluxmaların sayını üstələyir. Aparılan test sayına görə Türkiyə dünyada ilk beşliyə daxildir. Səhiyyə sahəsində həyata keçirilən islahatlar və investisiyalar nəticəsində daha çox insanın tibbi xidmətlərdən yararlanmasına imkan yaranıb. Səhiyyə sahəsinə sərmayə qoyaraq yeni xəstəxanalar açan Türkiyə hətta koronavirus pandemiyası yaranmamışdan əvvəl, əhali sıxlığının ən yüksək olduğu bölgələrdə 10 yeni xəstəxananın tikilməsini nəzərdə tutmuşdu. Nəticədə səhiyyə sistemimiz digər ölkələrdə olduğu kimi böyük təzyiqlərlə üzləşmədi".

Epidemiyanın biznesə və ev təsərrüfatına təsirini azaltmaq üçün Türkiyə hökumətinin borc ödənişlərini təxirə salaraq bəzi vergilərin endirilməsindən bəhs edən müəllif yazır ki, bütün şirkətlərə ödənişi daha sonra edə biləcəkləri 36 aya qədər faizsiz kreditlər verildi. Bundan əlavə, ailələrə birbaşa pul yardımı edildi. Bizneslə bağlı 100 milyard lirəlik dəstək paketi hazırlayan hökumət Türkiyə Varlıq Fondunun çətin vəziyyətdə qalan özəl şirkətləri satın almasını asanlaşdıran bir plan üzərində işləyir. Ancaq bir çox mütəxəssisin fikrincə, virusa qarşı mübarizəni effektiv şəkildə davam etdirmək üçün bunu etmək lazımdır. Pulsuz və universal bir səhiyyə sistemi olmayan ölkələr ciddi çatışmazlıqlar ilə üzləşirlər.

Məqalədə vurğulanır ki, Türkiyə 2003-cü ildən bəri səhiyyə sahəsində islahatlara imza ataraq, bölgədə pulsuz tibbi xidmət göstərən azsaylı dövlətlərdən biridir. Türkiyə səhiyyə sahəsində böyük bərabərsizlikləri aradan qaldıraraq, bütün vətəndaşlarını maliyyə risklərindən qorumaq üçün iddialı bir səhiyyə islahatı həyata keçirdi. On il ərzində səhiyyə xidmətləri universal hala gəldi və əhəmiyyətli dərəcədə irəliləyiş əldə edildi.




Bildirilir ki, sosial məsafə qaydalarına da ciddi yanaşılır: "Bütün beynəlxalq uçuşları ləğv etdik, daxili uçuşları məhdudlaşdırdıq. Məktəbləri, restoranları və kafeləri müvəqqəti bağladıq, kütləvi ibadətləri dayandırdıq. Həmçinin böyük şəhərlərimizdə həftə sonları küçəyə çıxma qadağası tətbiq etməklə epidemiyanı nəzarətdə saxlayırıq. Türkiyə virusdan zərər görən ölkələrə səyahəti məhdudlaşdıran və nəhayət tamamilə dayandıran ilk ölkələrdən biri oldu. Uçuşlar ləğv edilməzdən əvvəl sərnişinləri dərhal tibbi yoxlamadan keçirərək, xəstəlik simptomu olanları hava limanlarında müəyyənləşdirməyə çalışdıq.

Məhdud resurslarla koronavirus epidemiyası ilə mübarizə apararkən, mübarizənin kollektiv olduğunu və bu müddətdə heç bir ölkənin tək qalmamalı olduğunu bildirdik. Bu baxımdan Türkiyə Avropa dövlətləri də olmaqla bir çox ölkəyə kömək etdi".

Məqalədə vurğulanır ki, yüksək risk qrupunda olan böyüklərimizə xüsusi diqqət yetirdik: "65 yaşdan yuxarı vətəndaşlarımızın sərbəst hərəkət etməsini öz təhlükəsizlikləri baxımından məhdudlaşdırmaqla, yerli hakimiyyət orqanlarının onların ehtiyaclarını ödəməsini təmin etdik. Bu müddət ərzində nə böyüklərimizi, nə də gənclərimizi unutmadıq. Hətta daha da irəli gedərək epidemiya zamanı sahibsiz heyvanların ehtiyaclarını qarşıladıq. Atdığımız bütün addımlar Prezident Rəcəb Tayyib Ərdoğanın göstərişlərinə uyğun olaraq və epidemiya ilə mübarizədə qəbul etdiyimiz insanyönümlü və humanitar yanaşma çərçivəsində atıldı".

Məqalə belə tamamlanır: "Türkiyənin COVID-19 pandemiyasına qarşı mübarizəsinin və bu prosesi necə düzgün şəkildə idarə edə bilməsinin araşdırılması çox vacibdir. Avropa və Asiya qitələri arasında keçid nöqtəsi olan Türkiyə virusun ciddi narahatlıq doğurduğu İran ilə qonşudur. Bundan əlavə, İstanbul Hava Limanı dünyanın ən çox hava gəmisi qəbul edən aeroportlardan biridir. Bütün dövlətlər bu gün və qarşıdakı illər ərzində böhranın idarə olunması ilə bağlı suallara açıq olmalıdırlar. Bu müddətdə nəyin səhv olduğunu və gələcəkdə bənzər epidemiyaların qarşısının necə alına biləcəyini düşünməyə başlamaq məcburiyyətindəyik".

**Sabir Şahtaxtı,**
**AZƏRTAC-ın xüsusi müxbiri**

# Braziliyanın tanınmış elektron resursu Azərbaycanın ilk qlobal "virtual hackathon"undan yazıb

Braziliyanın tanınmış elektron resursu Azərbaycanın ilk qlobal "virtual hackathon"undan yazıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Braziliyanın San-Paulu Universitetinin "Jornal Da USP" elektron media resursunda nazirlik tərəfindən koronavirus (COVID-19) pandemiyası ilə mübarizə məqsədilə texnoloji həlləri bir araya gətirmək üçün keçirilmiş "Global Virtual Hackathon" müsabiqəsi haqqında geniş məqalə dərc olunub.

Qeyd edək ki, müsabiqədə III yeri Braziliyanın "Zebrafish" komandası tutub. Onlar zebra balığının istifadəsi ilə koronavirus antigenlərinin sürətli testi üçün avadanlıq təklif ediblər.

Məqalədə artıq bu layihə ilə bağlı qlobal miqyasda işlərin görüldüyü diqqətə çatdırılır və bu barədə geniş informasiya verilir.




# Hədiyyəli yeni "iPhone SE" modelləri "Azercell Eksklüziv"lərdə




Yeni smartfon alan "Azercell" abunəçiləri 6 aylıq hədiyyə internet qazanacaq.

Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell Telekom" "Apple" brendinin pərəstişkarlarına yeni sərfəli kampaniya təklif edir. Kampaniya çərçivəsində "Azercell Eksklüziv" mağazalarından yenilənmiş dizayna, güclü prosessor və kameraya malik "iPhone SE" smartfonunu əldə etmiş abunəçilər 6 ay ərzində hədiyyə olaraq hər ay 50 GB internet də əldə edəcəklər. "Azercell"in bu təklifi həm yeni, həm də mövcud fakturalı və fakturasız xətt abunəçiləri üçün keçərlidir.

"Apple" şirkətinin Azərbaycandakı yeganə rəsmi telekom tərəfdaşı "Azercell" abunəçilərinə "iPhone SE" smartfonlarını əldə edərkən ən qabaqcıl texnologiyaların imkanlarından yararlanmaq fürsətini təqdim edir. "Azercell Eksklüziv" mağazalarına müraciət edərək yeni növ "iPhone SE" modellərini müxtəlif rəngi və yaddaş ölçülərinə görə seçin və internetdən istifadə üçün möhtəşəm bonus əldə edin.

# Bu həftə bölgələrdə daha 1000 ailə "Azercell"dən Ramazan sovqatı alıb

Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar karantin dövründə xüsusi diqqət və qayğıya ehtiyacı olan insanları, aztəminatlı ailələri sevindirməkdə davam edir. Şirkətin korporativ sosial məsuliyyət strategiyası çərçivəsində həyata keçirilən xeyirxah təşəbbüs nəticəsində müqəddəs Ramazan ayının ikinci həftəsində Xızı, Göyçay, Göygöl, Goranboy, Naftalan, Daşkəsəndə yaşayan həssas kateqoriyalardan olan 1000 ailəyə ərzaq məhsullarından ibarət sovqat paylanılıb. Ərzaq payı alan ailələrin siyahısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim edilib. Payları ölkəboyu müxtəlif ünvanlara "Azərpoçt" MMC çatdırır.

Xatırladaq ki, "Azercell" şirkəti ötən həftə Cəlilabad, Hacıqabul, Füzuli və Gədəbəydə sosial təcrid şəraitində yaşayan 1000 ailəyə ərzaq yardımı çatdırıb. Ümumilikdə Ramazan ayı ərzində 4000-dən çox aztəminatlı ailəyə ərzaq dəstəyinin göstərilməsi nəzərdə tutulub.




"Azercell" şirkətinin təşkil etdiyi yardım aksiyalarının əsas məqsədi COVID-19 pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə həssas təbəqədən olan insanların sosial rifahını yaxşılaşdırmaq, dövlət tərəfindən məlum infeksiyanın yayılmasının qarşısının alınması istiqamətində keçirilən tədbirlərə dəstək vermək, həmçinin cəmiyyətdə vüsət alan sosial yardımlaşma təşəbbüslərinin genişlənməsinə nail olmaqdır.

# Fransa rəqəmsal valyuta yaratmağı təklif edib

Fransa Avropa İttifaqında (Aİ) öz dövlət rəqəmsal valyutasını yaratmaq və Aİ-də "Facebook"un kriptovalyutasından - "Libra"dan istifadənin qadağan olunması barədə təklif verib.

TASS-a istinadən xəbər verilir ki, bu barədə Fransanın Maliyyə naziri Bruno Le Mer Aİ-nin iqtisadiyyat və maliyyə nazirlərinin Helsinkidə keçirilən qeyri-rəsmi görüşündə bildirib.

Onun sözlərinə görə, bu yolla Fransa öz maliyyə suverenliyini qoruyacaq.

"Həm Aİ daxilində, həm də onun hüdudlarından kənarda beynəlxalq tranzaksiyaların dəyərini azaltmaq və sürətini artırmağın ən yaxşı yollarını axtarıb tapmalıyıq. Buna görə mən Avroqrupun müzakirə edəcəyi mövzular sırasına dövlət rəqəmsal valyutasının yaradılması məsələsinin daxil edilməsini təklif etdim. Bu məsələyə həmçinin oktyabrda Vaşinqtonda keçiriləcək BVF-nin növbəti iclasında da baxılacaq", - Le Mer deyib.

"İndiki şəraitdə Aİ-də "Libra"-nın dəstəklənməsini qadağan etməliyik. Söhbət istehlakçıların təhlükəsizliyindən, Avropa maliyyəsinin sabitliyindən və Aİ dövlətlərinin suverenliyindən gedir", - o vurğulayıb.

# "TCF" BOKT ASC-nin 31 dekabr 2019-cu il tarixinə BALANS HESABATI

*Azərbaycan manatı ilə*

| | 2019-cu il | 2018-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Əsas vəsaitlər | - | 3 322 |
| Qeyri-maddi aktivlər | - | 44 131 |
| Uzunmüddətli maliyyə aktivləri | - | - |
| Müştərilərə verilmiş kreditlər | 708 281 | 762 036 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 774 | 37 482 |
| Banklarda yerləşdirilmiş depozitlər | - | - |
| Digər aktivlər | 10 193 | 604 |
| **CƏMİ AKTİVLƏR** | **729 248** | **847 575** |
| **KAPİTAL** | | |
| Səhmdar (nizamnamə) kapitalı | 450 000 | 300 000 |
| Kapital ehtiyatları | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | (375 312) | (243 232) |
| **CƏMİ KAPİTAL** | **74 688** | **56 768** |
| **ÖHDƏLİKLƏR** | | |
| Maliyyə sektoru qarşısında öhdəliklər | 20 022 | - |
| Cari mənfəət vergisi üzrə öhdəliklər | - | - |
| Digər öhdəliklər | 634 538 | 790 807 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **654 560** | **790 807** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **729 248** | **847 575** |

| | 2019 | 2018 |
|---|---|---|
| Faiz gəlirləri | 24 967 | 319 789 |
| Faiz xərcləri | (5 022) | (224 797) |
| **Xalis faiz gəlirləri** | **19 945** | **94 992** |
| Digər əməliyyat gəlirləri | 3 631 | 9 098 |
| Digər əməliyyat xərcləri | (127 121) | (255 282) |
| Fövqəladə xərclər | (28 535) | (16 234) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **(132 080)** | **(167 426)** |
| Mənfəət vergisi xərci | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **(132 080)** | **(167 426)** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | - | - |

| | 2019-cu il | 2018-ci il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | (132 080) | (167 426) |
| Mənfəət vergisi üzrə xərclər | | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | |
| • Əsas vəsaitlərin amortizasiyası | - | 1 108 |
| • Qeyri-maddi aktivlərin amortizasiyası | 44 131 | 44 132 |
| • Əsas vəsaitlərin satışından və xaricolmasından | 3 322 | - |
| gəlirlər/zərərlər | | |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| • Müştərilərə verilmiş kreditlər artım/azalma | 53 755 | 4 521 325 |
| • Digər aktivlərdə artım/azalma | (9 589) | 11 743 |
| • Cari mənfəət vergisi üzrə öhdəliklər | - | - |
| • Digər öhdəliklər üzrə artım/azalma | (156 269) | 790 189 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul** | **(196 730)** | **5 201 071** |
| **vəsaitlərinin xalis hərəkəti** | | |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin** | | |
| **hərəkəti** | | |
| Qiymətli kağızların əldə edilməsi | - | - |
| Banklarda yerləşdirilmiş depozitlər | - | - |
| Əsas vəsaitlərin alınması | - | - |
| QMA alınması və digər kapital qoyuluşları | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul** | **-** | **-** |
| **vəsaitlərinin xalis hərəkəti** | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul** | | |
| **vəsaitlərinin hərəkəti** | | |
| Mülkiyyətçilərin kapital qoyuluşu | 150 000 | - |
| Alınmış kreditlər üzrə | 20 022 | (5 184 236) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul** | **170 022** | **(5 184 236)** |
| **vəsaitlərinin xalis hərəkəti** | | |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis** | **(26 708)** | **16 835** |
| **artması (azalması)** | | |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **37 482** | **20 647** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **10 774** | **37 482** |
| **İl ərzində artım (azalma)** | **(26 708)** | **16 835** |

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|
| **31 dekabr 2017-ci il tarixə qalıq** | **300 000** | **(75 806)** | **224 194** |
| 2018-ci il üzrə xalis mənfəət | - | (167 426) | (167 426) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | - | - | - |
| Elan edilmiş dividendlər | - | - | - |
| **31 dekabr 2018-ci il tarixə qalıq** | **300 000** | **(243 232)** | **56 768** |
| 2019-cu il üzrə xalis mənfəət | - | (132 080) | (132 080) |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 150 000 | - | 150 000 |
| Elan edilmiş dividendlər | - | - | - |
| **31 dekabr 2019-cu il tarixə qalıq** | **450 000** | **(375 312)** | **74 688** |

ANR Audit

"ANR Audit" MMC
AZ1096, Bakı ş.,
Q.Qarayev pr. 84/38
Tel: +99450 223 60 75
anraudit@office.az

## MÜSTƏQİL AUDİTORUN HESABATI

### "TCF" Bank olmayan kredit təşkilatı Açıq səhmdar cəmiyyətinin səhmdarlarına

**Rəy**

Biz "TCF" BOKT Açıq səhmdar cəmiyyətinin (bundan sonra Şirkət) 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Şirkətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Şirkətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"ANR Audit" MMC-nin direktor-auditoru Namiq Abbaslı**
**Bakı şəhəri, Azərbaycan Respublikası**
**01 may 2020-ci il**

# "Qafqaz Lizinq" MMC-nin 31 dekabr 2019-cu il tarixinə BALANS HESABATI

*Azərbaycan manatı ilə*

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar | 37 337 | 46 841 |
| Qeyri-maddi aktivlər | - | - |
| İştirak payı metodu üzrə investisiyalar | - | - |
| | ***37 337*** | ***46 841*** |
| *Qısamüddətli aktivlər* | | |
| Ehtiyatlar | - | - |
| Qısamüddətli debitor borcları | 116 277 | 164 762 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 22 102 | 111 061 |
| Sair qısamüddətli aktivlər | 540 459 | 340 353 |
| | ***678 838*** | ***616 176*** |
| **CƏMİ AKTİVLƏR** | **716 175** | **663 017** |
| **KAPİTAL** | | |
| Səhmdar (Nizamnamə) kapitalı | 660 000 | 660 000 |
| Kapital ehtiyatları | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 47 797 | (3 851) |
| **CƏMİ KAPİTAL** | **707 797** | **656 149** |
| **ÖHDƏLİKLƏR** | | |
| *Qısamüddətli öhdəliklər* | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 364 | 148 |
| Faiz xərcləri yaradan qısamüddətli öhdəliklər | - | - |
| Qısamüddətli kreditor borcları | 8 014 | 6 720 |
| Sair qısamüddətli öhdəliklər | - | - |
| | ***8378*** | ***6 868*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **8 378** | **6 868** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **716 175** | **663 017** |

| | 2019-cu il | 2018-ci il |
|---|---|---|
| Faiz gəlirləri | - | 578 |
| Faiz xərcləri | - | - |
| **Xalis faiz gəliri (zərəri)** | **-** | **578** |
| Əməliyyat gəlirləri | 14 717 | 26 350 |
| Əməliyyat xərcləri | (64 974) | (85 202) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **(50 257)** | **(58 274)** |
| Fövqəladə gəlirlər | 101 905 | - |
| Fövqəladə xərclər | - | (1 014) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **51 648** | **(59 288)** |
| Mənfəət vergisi | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **51 648** | **(59 288)** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | 51 648 | - |
| | **51 648** | **-** |

| | 2019-cu il | 2018-ci il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 51 648 | (59 288) |
| Mənfəət vergisi üzrə xərclər | - | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | |
| • Əsas vəsaitlərin amortizasiyası | 9 504 | 12 967 |
| • Qeyri-maddi aktivlərin amortizasiyası | - | - |
| • Əsas vəsaitlərin satışı və xaricolması üzrə | - | - |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| • Ehtiyatlar üzrə artım/azalma | - | - |
| • Əməliyyat debitor borclarında artım/azalma | 48 485 | 463 712 |
| • Sair qısamüddətli aktivlərdə artım/azalma | (200 106) | 1 911 612 |
| • Əməliyyat kreditor borclarında artım/azalma | 1 294 | (663) |
| • Vergi və s. məcburi ödənişlər üzrə artım/azalma | 216 | 148 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(88 959)** | **2 328 488** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Əsas vəsaitlər və QMA alınması | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-** | **-** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | **-** | **-** |
| Səhmlərin geri alınması | - | (2 540 000) |
| Dividendlərin ödənilməsi | - | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **-** | **(2 540 000)** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | **(88 959)** | **(211 512)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **111 061** | **322 573** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **22 102** | **111 061** |
| **İl ərzində artım (azalma)** | **(88 959)** | **(211 512)** |

*Azərbaycan Manatı ilə*

| | Nizamnamə Kapitalı | Kapital ehtiyatlar | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2017-ci il tarixə qalıq** | **3 200 000** | **-** | **55 437** | **3 255 437** |
| 2018-ci il üzrə xalis mənfəət (zərər) | - | - | (59 288) | (59 288) |
| Səhmdarlara Dividendlər | - | - | - | - |
| Səhmlərin geri alınması | (2 540 000) | - | - | (2 540 000) |
| **31 dekabr 2018-ci il tarixə qalıq** | **660 000** | **-** | **(3 851)** | **656 149** |
| 2019-cu il üzrə xalis mənfəət (zərər) | - | - | 51 648 | 51 648 |
| Təsisçilərə Dividendlər | - | - | - | - |
| **31 dekabr 2019-cu il tarixə qalıq** | **660 000** | **-** | **47 497** | **707 797** |

ANR Audit

"ANR Audit" MMC
AZ1096, Bakı
şəhəri, Q.Qarayev
prospekti 84/38
Tel: +99450 223 60 75
anraudit@office.az

## MÜSTƏQİL AUDİTORUN HESABATI

### "Qafqaz Lizinq" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçilərinə

**Rəy**

Biz "Qafqaz Lizinq" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra Cəmiyyət) 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

***Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və Mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"ANR Audit" MMC-nin direktor-auditoru Namiq Abbaslı**
**Bakı şəhəri, Azərbaycan Respublikası**
**07 may 2020-ci il**